www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 27 aprel 2016-cı il Çərşənbə № 90 (6411) Qiyməti 60 qəpik

**Xəbər**

## Məktəb direktorunun intiharının sensasion təfərrüatları

yazısı səh.4-də

**Gündəm**

### Qarabağ cəbhəsində gecə döyüşləri-düşmən itki verib geri çəkildi



Ermənistan prezidenti məğlubiyyətə görə ordu generallarını qovdu; düşmən ölkə dörd günlük müharibədəki itkilərinə görə qisas almağa çalışır

yazısı səh.9-da

### Müsavatın Divan üzvü oğlunun partiya yaratmasından danışdı

yazısı səh.7-də

### 11 gündür aclıq edən Tural Mustafayevin hekayəsində ilginc izlər

yazısı səh.4-də

### Tağı Əhmədovun batan 11 milyonu - dəyirmanın suyu hardan gəlir?

yazısı səh.6-da

### Dünyada hər il 13 milyon insan xərçəngdən öləcək

yazısı səh.15-də

### Həcdə qanunları pozan azərbaycanlılar edam edilə bilər

yazısı səh.10-da

### Cümhuriyyətimizin işğalından 96 il ötür

yazısı səh.13-də

### "Qanuni oğru"ların Rusiyadakı savaşı Bakıya sıçradı

yazısı səh.10-da

### İrəvanda terror: ermənilər öz qazdıqları quyuya düşürlər

yazısı səh.12-də

### Antiböhran Koalisiyası bu gün toplanır

yazısı səh.7-də

### Bakıya üç ay gecikmiş zəngin pərdəarxası

yazısı səh.13-də

## Cəbhədəki son erməni təxribatları arxasındakı mümkün hədəflər

# RUSİYANIN QARABAĞLA BAĞLI 3 SSENARİSİ - KREMLİN SEÇİMİ NƏ OLACAQ...

Onların ikisi Azərbaycanın maraqlarına cavab verir, biri isə...; çox şey önümüzdəki həftələrdə Moskvanın verəcəyi qərardan asılı olacaq; **rusiyalı ekspert:** "Moskva seçim qarşındadır və düşdüyü geosiyasi dalandan təcili çıxış yolu axtarır..."




yazısı səh.8-də

## Bakı mühüm beynəlxalq tədbirə ev sahibliyi etdi

**Prezident İlham Əliyev beynəlxalq aləmə səsləndi:** "Təəssüf ki, Ermənistan, sadəcə olaraq, bu qətnamələrə məhəl qoymur və onları yerinə yetirmir"

yazısı səh.5-də




### Olimpiya çempionunun "Nömrə 1" supermarketləri bağlanır

yazısı səh.4-də




### Politoloqdan müxalif partiya sədrlərinə "avantürist" ittihamı

yazısı səh.3-də



### Ərdoğandan Putinə tikanlı mesaj

yazısı səh.5-də



# İlham Əliyevin reytinqi- 97%

**Azərbaycanda prezident seçkiləri qarşıdan gələn bazar günü keçirilsəydi, Bakı şəhərində rəyi soruşulanların mütləq əksəriyyəti - 86,2% bu seçkilərə qatılardı. Bunu "Rəy" Monitorinq Mərkəzinin aprelin 18-19-da Bakı şəhərində 800 respondent arasında keçirdiyi sorğunun nəticələri göstərib.**

Respondentlərin 68,1%-i birmənalı olaraq "səsvermədə iştirak edərdim", 18,1%-i isə "yəqin ki, iştirak edərdim" cavab variantlarını seçib.

Məlum olub ki, paytaxt əhalisinin böyük əksəriyyəti - 92,8%-i öz səsini İlham Əliyevə verərdi.

Rəyi soruşulanların 97%-i İlham Əliyevə tam etibar etdiyini, 89%-ə yaxını İlham Əliyevin onlar kimi insanların maraqlarına cavab verdiyini qeyd edib.

Sorğu həmçinin müəyyən edib ki, respondentlərin 78,8%-i prezident postunda İlham Əliyevə alternativ görmür.

# İran ABŞ-a etiraz notası verib



**İran ABŞ-a etiraz notası verib. İran XİN-dən verilən məlumata görə, etiraz notası ABŞ-ın bu ölkədə maraqlarını təmsil edən İsveçrə səfirinə verilib. İran XİN-ə çağırılan İsveçrə səfirinə iki etiraz notası təqdim olunub.**

Notanın biri Amerika Ali Məhkəməsinin İranın dondurulmuş aktivlərinin Amerika ailələrinə kompensasiya olaraq verilməsinə görədir.

İran məhkəmə qərarını iki ölkə arasında olan müqavilələr, xüsusilə 1955-ci ildə imzalanmış müqavilənin, eləcə də beynəlxalq qanunların ABŞ tərəfindən pozulması kimi qiymətləndirib.

İkinci nota isə Nyu-York yerli məhkəməsinin İranın 11 sentyabr terror hücumlarında ittiham olunmasına etirazdır. Notada İran bu kimi ittihamların əsassız olduğunu bildirib və bəyan edib ki, İranın və ya İran vətəndaşlarının bu terror hücumunda iştirakına dair heç bir dəlil, sübut və şahid yoxdur, bu kimi iddialar gülünc və beynəlxalq hüquq normalarına ziddir.

İsveçrə səfiri bildirib ki, etiraz notalarını ABŞ-ın xarici siyasət idarəsində çatdıracaq və nəticəni bildirəcək.

# Bu gün hava necə olacaq?

**Aprelin 27-də hava şəraitinin Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi, arabir tutulacağı gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən qaynarinfo.az-a verilən məlumata görə, səhər ayrı-ayrı yerlərdə zəif duman olacaq. Şimal-qərb küləyi gündüz mülayim cənub küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu Abşeron yarımadasında gecə 10-14, gündüz 20-24, yarımadanın bəzi yerlərində 27-dərəcə isti, Bakıda gecə 11-13, gündüz 23-25 dərəcə isti olacaq.

Aprelin 27-də Azərbaycan rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Lakin axşam bəzi şimal və qərb rayonlarında şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 10-15, gündüz 25-30, dağlarda gecə 7-12, gündüz 20-25 dərəcə isti olacaq.

"Qaya Mətbuat Yayımı" MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Qırmızı Xaçdan Dilqəm Əsgərov və Şahbaz Quliyev açıqlaması

**Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) erməni girovluğunda saxlanan Dilqəm Əsgərov və Şahbaz Quliyevə işgəncə verilməsi ilə bağlı səslənən fikirlərə dair açıqlama verib.**



Qurumun Bakı nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova modern.az saytına deyib ki, saxlanan şəxslərə sonuncu dəfə aprel ayının 21-də baş çəkilib:

"Beynəlxalq Qırmızı Xaç Komitəsinin bütün dünyada iş prinsipi belədir ki, baş çəkdiyi şəxslər barədə ictimaiyyəti məlumatlandırmır, fiziki durumu barədə açıqlama vermir. O ki qaldı məktub yazıb-yazmamalarına, qeyd edim ki, saxlanılan şəxslər məlumatları ailələrinə müxtəlif növdə göndərə bilərlər. Bu məlumat şifahi və yazılı da ola bilər".

**İ.Hüseynova deyib ki, saxlanılan şəxslərdən ailələrinə məlumat çatdırılıb:** "Bu dəfə yazılı məlumatın olmaması saxlanılan şəxslərin fiziki durumunun yaxşı olmaması anlamına gəlmir və heç bir şeyə dəlalət etmir".

Qeyd edək ki, azərbaycanlı girovların ailələri sonuncu başçəkmədən sonra Dilqəm Əsgərov və Şahbaz Quliyevdən yazılı informasiya ala bilməyib. Ailə üzvlərinin bildirdiklərinə görə, BQXK rəsmiləri məktub yazılmamasını cəbhədə vəziyyətin gərginləşməsi ilə izah ediblər.

Yaxınları komitənin şifahi olaraq "yaxşıdılar" informasiyasına inanmır, onlara işgəncə verildiyini iddia edirlər.

2014-cü ilin iyul ayında Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan Silahlı Qüvvələri tərəfindən girov götürülüblər, digər Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülüb. H. Həsənovun meyiti düşməndən alınaraq Bakıda dəfn edilib.

İşğal altındakı Dağlıq Qarabağda D. Əsgərov və Ş. Quliyev üzərində qurulan "məhkəmə" qərarı ilə D. Əsgərov ömürlük, Ş. Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilib.

# Şeyx ermənilərə çağırış edib

**"Ermənilər öz ədalətsiz, haqsız iddialarından əl çəkməlidirlər. Başa düşməlidirlər ki, onlar uduzublar". "Report"un xəbərinə görə, bunu jurnalistlərə açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə deyib.**

O bildirib ki, ermənilər təkcə Azərbaycana deyil, dünya ictimaiyyətinə uduzublar: "Onlar başqa dinləri və dilləri saymırlar. Özgəyə məxsus torpaqları zəbt edirlər. Ermənilər hər yerə hər cür vasitəyə əl atan bir millətdir. Ermənistan gec-tez Azərbaycan torpaqlarından çıxmalıdır. Mən Azərbaycanın gələcəyinə inanıram. Ermənilərin atdığı addımlar isə qəbuledilməzdir. Onlar özlərini də məhv edirlər. Ermənilərin dini liderlərinə bir daha mesaj göndərirəm, insanları başa salsınlar ki, işğal olunmuş Azərbaycan torpaqlarından çıxsınlar, onların analarının gözləri yaşlı qalmasın".

# Hafiz Məmmədovun klubu qovuldu

**AFFA İntizam Komitəsi "Bakı" klubunun 15 yaşadək komandasını çempionatdan kənarlaşdırıb.**

Qaynarinfo.az xəbər verir ki, aprelin 19-da "Xəzər Lənkəran"la oyunda bu komanda iştirak etməyib və qaydalara əsasən 0:3 hesablı texniki məğlubiyyət alıb. Bu hal 3-cü dəfə təkrarlandığı üçün klub yarışlardan kənarlaşdırılıb.

Qeyd edək ki, bu klub "Hafka" ləqəbi ilə tanınan iş adamı Hafiz Məmmədovundur. Onun I dəstədə çıxış edən əsas komandasının da vəziyyəti maliyyə durumuna görə ağırdır və 3 dəfə FİFA tərəfindən cəzalandırılaraq 9 xalı silinib.



# AZAL Alanyaya uçmaqdan imtina etdi

**"Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) iyul ayından Türkiyənin kurort şəhərlərindən olan Alanyaya (Qazipaşa beynəlxalq hava limanı) başladacağı aviareys təxirə salınıb.**

APA Türkiyə mətbuatına istinadən xəbər verir ki, AZAL əvvəl iyul ayından etibarən həftədə bir dəfə uçuşlar həyata keçirəcəyini bildirsə də, sonradan müxtəlif səbəblərlə Qazipaşa beynəlxalq hava limanına uçuşları təxirə salıb.

AZAL-dan saytın sorğusuna cavab olaraq bildirilib ki, AZALJET-in Alanyaya aviareyslərlə bağlı planları dəyişib: "Aviaşirkət bu mövsüm Alanyaya aviareyslərin yerinə yetirilməyəcəyi barədə qərar qəbul edib. Bizim Türkiyədəki tərəfdaşımız turistlərimizin Antalyadan Alanyaya yerüstü nəqliyyatlar vasitəsilə daşınmasını təmin edəcəklər".

Qeyd edək ki, bir müddət öncə AZAL Alanya (Qazipaşa beynəlxalq hava limanı) şəhəri də daxil olmaqla, Türkiyənin məşhur kurort şəhərləri - Antalya, Bodrum, İzmir və Dalamana yeni uçuş proqramını elan etmişdi.

# Məktəblərin ibtidai siniflərində əlavə yaz tətili başlayır

**Mayın 1-dən Azərbaycanda məktəblilərin əlavə yaz tətili başlayır. Təhsil Nazirliyindən bildirilib ki, 1-5 may tarixlərini əhatə edəcək əlavə yaz tətili ibtidai siniflərə (I-IV sinif şagirdlərinə) şamil ediləcək. Əlavə yaz tətili 5 gün davam edəcək.**

Bu il mayın 1-i bazar gününə təsadüf etsə də, məktəblilərin əlavə yaz tətili günlərində heç bir dəyişiklik edilməyəcək.

Qeyd edək ki, tədris ilində ümumtəhsil məktəblərində dərs məşğələləri sentyabrın 15-də başlayıb iyunun 14-də yekunlaşacaq. Dərs ili iki yarımilə bölünür. Birinci yarımil 15 sentyabr - 26 yanvar, ikinci yarımil 1 fevral - 14 iyun tarixlərini əhatə edir. Dərs ili ərzində payız tətili 5 gün (16-20 noyabr), qış tətili 5 gün (27-31 yanvar), ibtidai siniflər üçün 5 günlük (1-5 may) əlavə yaz tətili müəyyən edilib.

# Rusiyada Krım Tatarları Məclisi qadağan edildi

**Krım Ali Məhkəməsi Krım Tatarları Məclisinin ekstremist təşkilat olduğunu bəyan edərək onun Rusiya ərazisindəki fəaliyyətini qadağan edib. "Qafqazinfo" Rusiya KİV-ə istinadən xəbər verir ki, məclisin qadağan edilməsi ilə bağlı məhkəməyə iddia Krım prokuroru Nataliya Poklonskaya tərəfindən daxil olub. O bildirib ki, təşkilat tamamilə anti-Rusiya fəaliyyətinə köklənib, onun rəhbərləri Refat Çubarov və Mustafa Cəmilev isə "böyük Qərb kuklaoynadanlarının əlində oyuncağa çevriliblər".**

Prokurorluğun məlumatına görə, məclis liderləri "Boz qurdlar", «Xizb ut Tahrir əl İslami" kimi terror təşkilatları ilə əməkdaşlıq edirlər.



# Məhkəmə ANS-in MTRŞ-yə qarşı şikayətlərini təmin etmədi

**Bakı Apelyasiya Məhkəməsində ANS ÇM radiosunun Milli Televiziya və Radio Şurasına (MTRŞ) qarşı şikayətləri üzrə 5 məhkəmə prosesi keçirilib.**

MTRŞ-nin nümayəndəsi Toğrul Mirzəzadənin APA-ya verdiyi məlumata görə, məhkəmə şikayətlər üzrə bir qərar qəbul edib. Qərara əsasən, radionun şikayətləri təmin edilməyib və Səbayel Rayon Məhkəməsinin qərarları qüvvəsində saxlanılıb.

Qeyd edək ki, MTRŞ radionun cərimə olunması ilə bağlı bir neçə qərar qəbul edib. Həmin qərarlarla razılaşmayan radio Səbayel Rayon Məhkəməsinə müraciət edib. Məhkəmə radionun iddialarını təmin etmədiyindən apelyasiya şikayətləri verilib.




# Mərkəzi Bank 30 mln. dollar aldı

**Aprelin 26-da Azərbaycan Dövlət Neft Fondu (ARDNF) tərəfindən 50 mln. ABŞ dolları məbləğində vəsait hərraca çıxarılıb.**

Fonddan "APA-Economics"ə verilən məlumata görə, bu vəsaitdən 4,9 mln. dollar məbləğində vəsait 5 banka və 30 mln. dollar məbləğində vəsait Azərbaycan Mərkəzi Bankına satılıb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 90 (6411) 27 aprel 2016

**"Azərbaycanda müstəqil jurnalistikaya müharibə elan olunub". ABŞ-ın nüfuzlu «The Washington Post» qəzeti belə bir başlıqlı redaksiya məqaləsi dərc edib.**




# "Azərbaycan" "Vaşinqton Post"a cavab verməyəcək

## Bəxtiyar Sadıqov: "Prezidentimiz qlobal işlərlə məşğuldur, biz də onun dünyaya çatdırılması ilə"


Bəxtiyar Sadıqov

Məqalədə deyilir ki, Azərbaycan prezidenti İlham Əliyev Birləşmiş Ştatlara səfərindən öncə bəzi jurnalistləri və siyasi məhbusları əfv etdi. Məqalədə hüquq müdafiəçiləri Leyla və Arif Yunusların həbsinin yanlış olması və azad edilərək, Azərbaycandan çıxmalarına icazə verildiyi də əks olunur. Yazıda eyni zamanda Meydan TV ilə bağlı qeyd var. "Meydan TV-nin təcrübəsi göstərdi ki, rəqəmsal yollarla qapalı cəmiyyətlərə azad informasiya çatdırmaq mümkündür. İlham Əliyev bütün siyasi məhbusları azadlığa buraxmalı, Meydan TV-yə qarşı cinayət işini dayandırmalıdır"...

Hakimiyyət təmsilçiləri «The Washington Post»un bu yazdıqlarını hələlik şərh etməyib. Ancaq ənənəvi olaraq, hakimiyyət ölkədə siyasi motivlərlə həbsə atılanların olmadığını, hər kəsin konkret cinayətlərə görə cəza çəkdiyini, bütün təməl hüquqların qorunduğunu bildirir.

**Adətən Qərb mediasında dərc edilən bu sayaq materiallara Azərbaycanın iqtidar mediası tərəfindən cavab verilir. "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu sayaq yazılar açıq qərəzdən xəbər verir. Onun sözlərinə görə, hazırda bütün dünyanın gözü Bakıdadır, çünki dünya Bakıda birləşib:** "Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu öz işinə başlayıb. Bu, Azərbaycanın təşəbbüsü ilə Bakıda keçirilən forumdur. Azərbaycan burda bütün dünyanı düşündürən problemləri müzakirə edir. Eyni zamanda dünyanı təhdid edən məqamlar, xüsusən terrorla mübarizə, dünyada sülh və əmin-amanlığı təmin etməklə bağlı məsələlər də müzakirənin əsas məqamlarıdır. Bakıda keçirilən ən ali qurumun tədbiri Azərbaycanın yox, dünyanın problemləri ilə bağlıdır. Terror deyəndə son aylar Fransada, Brüsseldə, Ankarada baş verən hadisələr yada düşür. Hazırda qaçqınlar burulğanında boğulan Almaniyanı da yaddan çıxarmaq lazım deyil. Ona görə də deməliyik ki, Azərbaycan prezidenti olduqca həssas məsələlərlə məşğuldur. Bu səbəbdən də Amerikadan olan jurnalist yaxşı olardı ki, dünyanın mərkəzi hadisələrindən biri

### "Onların qanını yoxlamaq lazımdır"

olan bu forum barədə yazsın, qərəz nümayiş etdirməsin. Görün qərəzi hansı həddə çatıb ki, Azərbaycan prezidentinə Meydan TV-yə baxmağı məsləhət görüb. Prezident Azərbaycan jurnalistlərinin dostudur, bizimlə vaxtaşırı görüşür. Yüksək dərəcədə humanist və alicənab insandır. Novruz bayramında yüzlərlə məhbusu əfv etdi. Onların içərisində konkret cinayət əməlinə görə ittiham olunanlar vardı".

**B.Sadıqov hesab edir ki, Azərbaycan prezidentinin heç kimin məsləhətinə ehtiyacı yoxdur. Onun sözlərinə görə, İ.Əliyev nəinki ölkənin problemlərini həll edir, eyni zamanda bəşəriyyətin problemlərinə də diqqət yetirir:** "Meydan TV-dəki insanlar düzgün, Azərbaycanı sevən insanlardırsa, niyə gedib başqa dövlətdə oturrular? "Azərbaycan saatı" verilişi də onun kimi. Onların hər ikisinə səslənirəm - əgər orda xalqını sevən insanlar çalışırlarsa, bir gün gəlib Azərbaycanda otursunlar. Şəhid olan Azərbaycan əsgərinin ailəsinin kədərinə şərik olsunlar. Bu dəqiqə Azərbaycanda elə bir ruh yüksəkliyi var ki... Torpaqlarımız qayıdıb, Azərbaycan ordusu öz gücü, qüdrəti ilə erməni ordusunu əzib sındırıb. Bu gün Ermənistan prezidenti generalları işdən qovur. Bu, bizim uğurumuzdur. Düşmənin başını itirdiyi, ölkəsində uğursuzluq əhvalının olduğu dönəmdə hər kəs vətənin təəssübünü çəkməli, onun müdafiəsində olmalıdır. Kiminsə, nəyinsə qrantına, ianəsinə, xaricdə azad yaşamağa görə onun-bunun tapşırığı ilə Azərbaycan, onun prezidenti əleyhinə iş aparmaq cinayətdir. Mən o cür adamların qanının təmizliyinə şübhə edirəm. Həmin ərəfədə iqtidar-müxalifət ayrımı olmadı. Hamı birləşdi. Bəs xaricdə onun-bunun pulu ilə banlayanlar niyə xalqın yanında olmadı?"

**Baş redaktorun sözlərin görə, "Azərbaycan" qəzeti "Vaşinqton Post"a cavab verməyəcək. Müsahibimiz dedi ki, hazırda prezidentimiz qlobal işlərlə məşğuldur:** "Azərbaycanın milli təəssübkeşliyi olan jurnalistləri də bu işləri təbliğ etməli, dünyaya ölkənin qüdrətini göstərməlidir. Biz də hazırda bununla məşğuluq".

❑ Sevinc TELMANQIZI

# Politoloqdan müxalif partiya sədrlərinə "avantürist" ittihamı

## "Gərək Putinin çağırışına məhəl qoyulmayaydı" kimi fikirlər bildirən siyasətçilər bu gün özləri hakimiyyətdə olsaydılar..."


Qabil Hüseynli

**Ermənistan prezidenti Serj Sərkisyanın sülh danışıqlarından imtina kimi şərh edilə bilən bəyanatlarla çıxış etməsi Azərbaycanda bəzi müxalifət partiyalarının sədrlərinin əlinə müharibə məsələsində hakimiyyətin üzərinə getməsi üçün fürsət verib. Aprelin 5-də Rusiya prezidenti Vladimir Putinin zəngindən sonra atəşkəsə gedilməsinin yanlış olduğunu bildirərək "Gərək Putinin çağırışına məhəl qoymayıb başlanan müharibəni davam etdirəydik" kimi mövqe ortaya qoyan bəzi partiya rəhbərləri eyni tipli bəyanatları yenə ifadə etməyə başlayıblar. Onlar indi də deyirlər ki, Sərkisyanın danışıqlardan imtinası və hər an müharibənin başlana biləcəyini elan etməsi, həmçinin son günlər cəbhə xəttində atışmaların intensivləşməsi onların "gərək Putinə fikir verməyib müharibəni davam etdirəydik" bəyanatlarının haqlı olduğunu təsdiqləyir.**

**Politoloq Qabil Hüseynli** isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu mövqedə olanlar ciddi surətdə yanılırlar. Çünki əvvəla, Putin əslində təhdidlə atəşkəs rejiminə əməl edilməsinə çağırdı, müəyyən xof elementləri yaratmaq üçün Şimali Qafqaz hərbi dairəsinin 10 minə yaxın qoşununu Dağıstana gətirdi və orada hərbi təlimlərə başladı. Hətta bəzi Jirinovski tipli şəxslərin dili ilə Rusiyanın Cənubi Qafqazda xaos yarada biləcəyi ehtimalını da ictimai fikrə təlqin etdi. Belə olan halda siyasətçi gerçəkçi olmalı və reallıqları nəzərə almalıdır: "Dəyişən reallıqlar onu bürüzə verdi ki, Rusiya Ermənistanı hərbi iflasdan xilas etmək istəyir. Bunun üçün də əlində olan imkanları işə saldı. Hadisələrin son inkişafı da bunu təsdiq elədi. Belə şəraitdə hansısa müxalif partiya liderlərinin "gərək Putinin çağırışına məhəl qoyulmayaydı, müharibə davam etdiriləydi" kimi hədə xarakterli bəyanatlarının əsası yoxdur. Bu, demoqogiyadan uzağa gedə bilməz. İkincisi, müharibə haqqında ciddi məlumatları, bilgiləri olan şəxs Rusiyanın nə istədiyini, Rusiya faktorunu görməyə bilməz. Bu və digər çox mühüm məqamlar var ki, onları nəzərə almadan belə bəyanatlar vermək ümumiyyətlə proseslərdən bixəbərlikdən və hətta avantüristlikdən xəbər verir. Biz çox qəvi düşmənə qarşı mübarizə aparırıq. Onun arxasında ondan da geri qalmayan bir qəyyum dayanır. Dünya ictimai rəyinin, Avropa ölkələrinin özü, ABŞ bu qəyyumla çox ehtiyatla davranır. Bu qəyyumun dünyanı fəlakətə sürükləmək niyyətində olduğunu da hər kəs söyləyir. Belə bir şəraitdə dünyanın bir nömrəli dövləti bu qəyyumla ehtiyatlı davranıb onu tədricən taqətdən salmaq xətti götürübsə, biz niyə onunla qarşıdurmaya gedib özümüzü ciddi zərərə uğratmalıyıq. Bu məsələdə bəzi müxalif siyasətçilərin Azərbaycan hakimiyyətinə dərs vermək cəhdlərini əsl siyasətçiyə xas olmayan davranış kimi qiymətləndirirəm".

**Q.Hüseynli hesab edir ki, "gərək Putinin çağırışına məhəl qoyulmayaydı" kimi fikirlər bildirən siyasətçilər bu gün özləri hakimiyyətdə olsaydılar, onlar da indiki Azərbaycan hakimiyyəti kimi davranmağa məcbur olardılar:** "Onlar da Rusiya faktorunu mütləq nəzərə alacaqdılar, reallıqları nəzərə alıb buna uyğun da hərəkət edəcəkdilər. İndi müxalifətdədirlər deyə hakimiyyətə qarşı məlum hadisəni əsas götürüb çıxış edirlər. Psevdovətənpərvərlik mövqeyindən ictimai rəyə müxtəlif mesajlar ötürmələri siyasətdən bixəbərlik əlamətidir. Eyni zamanda burada əməlli-başlı avantüra elementləri var".

❑ Etibar SEYİDAĞA

# Yaşlı nəsil döyüşmək istəyir - qanun buna icazə verirmi?

## Üzeyir Cəfərov: "Belə şəxslər orduya çağırıla da bilərlər"

**Bu ayın əvvəlindən etibarən cəbhə xəttində baş verən döyüşlərdən və ordumuzun ciddi uğurlarından sonra Azərbaycan xalqı qələbəyə kökləndi. İstənilən yaş kateqoriyasından asılı olmayaraq, hər kəs könüllü surətdə orduya yazılmaq, torpaqlarımızın işğaldan azad olunması üçün döyüşmək istəyini ifadə etdi.**

Xüsusilə bu məsələdə yaşlı nəsil daha çox diqqət cəlb etdi. Orduya yazılmaq yaşları keçsə də, yaşları 60-70-i ötmüş nəsil israrla döyüşmək arzularından danışdılar. Sosial şəbəkələrdə və mətbuat səhifələrində bu, açıq şəkildə özünü büruzə verdi. Bütün bunlardan sonra ictimaiyyəti bir sual maraqlandırır.

Ehtiyac yaranarsa, yaşları orduya yazılmaq dövrünü keçən şəxslər müharibəyə aparılarmı?

**Hərbi ekspert Üzeyir Cəfərov bildirdi ki, hazırda keçmiş döyüşçülərin və yaşlı nəslin orduya yazılmalarına ehtiyac yoxdur:** "Yaxşı olardı ki, birinci Qarabağ savaşında iştirak edənlərdən yaşları uyğun olanlar əsgərlərimizin yanında olsunlar. Çünki onlar döyüş yerlərini daha yaxşı tanıyırlar. Bu istiqamətdə düşünürəm ki, addımların atılmasına böyük ehtiyac var. Keçmiş döyüşçülərin ön cəbhədə olmaları müharibə görməyən, eləcə də müharibədə iştirak etmək istəməyən şəxslərə bir örnək olar, ruh yüksəkliyi yaradar. Bu hal bizim üçün də yaxşı olardı. Amma yaşlı nəslin köməyinə hələ ki ehtiyac yoxdur. Ehtiyatda olanlar üç kateqoriyaya bölünür. Ehtiyatda olanlar, istefada olanlar və xidməti zərurət doğuran şəxslər. Bunlar hamısı qanunla tənzimlənir. Amma istəmirəm ki, yaşlı insanlarımız silah altına keçsinlər. Buna zərurət də yoxdur. Azərbaycan son döyüşlərdə azsaylı məhdud heyətdən istifadə etdi. Bu heyət tabor səviyyəsindən yuxarı keçmədi. Yalnız bir neçə taborun iştirakı təmin olunub. Amma silahlı qüvvələrimiz briqada şəklində döyüşlərə gedəcəksə, daha böyük nəticələr qazanmaq olar. Vətənpərvər insanlarımızın arzu və istəklərini başa düşürəm. Bu günlər onların mənəvi dəstək olmaları əsgərlərimiz üçün yetərlidir. Amma təbii ki, lazım olarsa, belə şəxslər orduya çağırıla da bilərlər. Əminəm ki, o zaman əsgərlərimizlə bərabər üzərlərinə düşən tapşırıqları yerinə yetirəcəklər".


Üzeyir Cəfərov

**Hərbi ekspert bu kimi hallarda şəxsin fiziki göstəricilərinin də nəzərə alındığını söylədi:** "Tibbi göstəricilər var. Bu göstəricilərə görə, əgər insanın fiziki göstəriciləri müəyyən məsafəni qət etməyə, nəzərdə tutulan yükü götürməyə imkan verirsə, sözsüz ki, bu şəxs müharibə vaxtı xidmətə yararlı sayılır. Əgər bu imkanlar yoxdursa, həmin şəxsi zorla xidmətə aparmaq olmaz. Bu gün əhalimiz 10 milyonu keçib. 4 milyondan çox əli silah tuta bilən vətəndaşlarımız var. O qədər şəxslər olduğu halda, yaşı keçmiş şəxsləri döyüşlərə aparmağa nə ehtiyac var? Səfərbərlik məsələləri yalnız ölkə başçısının tapşırığı ilə həyata keçirilə bilər və o zaman bu tipli şəxslərə ehtiyacın olub-olmaması məlum olur. Amma belə olacağını düşünmürəm. Birinci Qarabağ savaşında ordu tam formalaşmamışdı. Ona görə insanlar oradan-buradan tutularaq, hərbi hissələrə cəlb olunurdular. Sevindirici haldır ki, indi nizami ordumuz var. O ordu üzərinə düşən tapşırığı işi yerinə yetirmək iqtidarındadır".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 90 (6411) 27 aprel 2016

**Ötən sayımızda "Gədəbəydə məktəb direktoru özünü asdı" sərlövhəli yazı dərc etmişdik. Yazıda Talakənd kənd orta məktəbinin direktoru Fəxrəddin Kamil oğlu Əliyevin intihar etməsindən söhbət açılırdı. Redaksiyamıza Gədəbəydəki müxtəlif mənbələrdən daxil olan məlumat əsasında hazırlanan yazıda F.Əliyevin intiharının direktoru olduğu məktəbdəki yeyintilərlə əlaqəli olması ehtimalı irəli sürülürdü.**

# Məktəb direktorunun intiharının sensasion təfərrüatları

## Fəxrəddin Əliyevin oğlu atasının ölümündə 2 məmurun günahkar olduğunu açıqladı; Düzyurd bələdiyyəsinin daha bir sədrinin ölümü üzə çıxdı

### "Deyirdilər ki, səni tutdurarıq, səni öldürərik"

Mərhum direktorun oğlu Elvin Əliyev dünən "Yeni Müsavat" qəzeti redaksiyasına zəng edərək atasının intiharının ilginc detallarını açıqlayıb. E.Əliyevin sözlərindən məlum olur ki, atasının intiharı onun zorla sədr təyin edildiyi bələdiyyə ilə əlaqəlidir. Onun sözlərinə görə, Düzyurd bələdiyyəsinə sədr qoyulandan sonra atası çox gərgin durumda olub: "Atamı 3 ay əvvəl zorla Düzyurd bələdiyyəsinin sədri qoydular. Bunu edən Düzyurd kənd İnzibati Ərazi Dairəsinin sədri Vahid İsrafil oğlu Kazımov və Gədəbəy İcra Hakimiyyəti Başçısı Aparatının ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Nizaməddin müəllim idi. Bu adamlar atama hədə-qorxu gəlirdilər. Deyirdilər, "səni tutdurarıq, öldürərik. Bələdiyyənin möhürünü götürməlisən". Atam da demişdi ki, mən möhürü götürə bilmərəm, 2 vəzifəni necə daşıyım? Atam məktəb direktoru idi. Onu məcbur elədilər ki, bələdiyyə sədri olsun. Bələdiyyənin möhürünü zorla atama verdilər. Sonra da ona hədə-qorxu gəlməyə başladılar".

### "İcra başçısı Ramiz Yediyarova 5 dəfə məktub yazıb..."

**Elvin Əliyevin sözlərindən belə aydın olur ki, Düzyurd bələdiyyəsinə atasından əvvəl sədrlik edən Zakir Nuriyev də təzyiqlərə tab gətirməyərək dünyasını dəyişib:** "Atam 3-4 ay idi ki, Düzyurd bələdiyyəsinə zorla sədr qoyulmuşdu. O, bu müddət ərzində icra başçısı Ramiz Yediyarova 5 dəfə məktub yazıb bələdiyyə sədri olmaq istəmədiyini bildirib. Atamdan əvvəl həmin vəzifədə Zakir Nuriyev idi. Ona da zorla bələdiyyənin möhürünü vermişdilər. İnfarkt keçirib öldü. Atamı ora qoyanda Zakir Nuriyevin 40-ı çıxmamışdı".

### "Atamı sıxırdılar, bankdan 1000 manat borc götürüb aparıb verdi"

**Elvin Əliyev deyir ki, atası bələdiyyə sədri qoyulandan sonra ondan hesabat tələb olunub:** "Onu rayon mərkəzinə çağırırdılar. Tələbləri də bu olurdu ki, gəlib hesabat versin. Atamı hədələyirdilər, zəng edirdilər, tələb edirdilər ki, hesabat versin. Deyirdilər ki, pul verməsə hesabat verə bilməz. Onu çox sıxırdılar, axırda atam bankdan 1000 manat borc götürüb, aparıb verdi. Ona güc göstərirdilər. Deyirdilər ki, həbsə atacağıq, tutduracağıq. Atamı Gədəbəy icra hakimiyyətində olanlar hədələyirdilər. Onu çağırırdılar rayon mərkəzinə, fağır adam idi, gedirdi. Atama bələdiyyənin möhürünü verəndən sonra o, nə gülürdü, nə danışırdı. Vəziyyəti gərgin idi. Danışmırdı. Biz kasıb ailəyik. Evimizi kənardan gəlib görən olsa, ürküb qaçar ki, bu evdə necə yaşayırsınız? Özüm işsizəm. Hərbidən xəstə gəlmişəm, Ailəliyəm. Bizi atam dolandırırdı. Atamı da belə etdilər, yedilər... Atam qorxusundan gəldi evə, bir də səhərə yaxın bildik ki, özünü asıb".

### "Atam babamın yurdunda özünü asıb"

**E.Əliyev deyir ki, atasının asılmış meyitini anası görüb:** "Səhər anam yuxudan qalxanda görüb ki, atam yoxdur. Çıxıb həyətə, görüb ki, atam özünü babamın yurdunda asıb. Zəng elədik, polis gəldi, apardılar".

### "Ört-basdır məsələsi olmayacaq"

**E.Əliyevin sözlərindən məlum olur ki, atasının ölümündən sonra Gədəbəy Rayon Prokurorluğunun müstəntiqi atasına məxsus telefonu da onlardan alıb:** "Biz ölkə rəhbərliyinə hələlik müraciət etməmişik. Ört-basdır məsələsi olmayacaq. Olsa, bizim Bakıda adamlarımız var, gedib şikayət edəcəyik".

### "Anamın vəziyyəti ağırlaşdı, apardılar xəstəxanaya"

**Elvin Əliyevin sözlərinə görə, atasının intiharından sonra anası ağır durumda Gəncə Şəhər Xəstəxanasına yerləşdirilib:** "Anamın xəstəliyi vardı. Dədəm belə olandan sonra anamın vəziyyəti ağırlaşdı, apardılar xəstəxanaya".

### Baş Prokurorluq araşdırma aparıldığını deyir

**Baş Prokurorluğun mətbuat xidməti F.Əliyevin intihar həddinə çatdırılması ilə bağlı "Yeni Müsavat"ın sorğusuna cavab verib.**

Həmin cavabda deyilir: "19 aprel 2016-cı il tarixdə saat 07 radələrində Gədəbəy rayonunun Talakənd doqquzillik məktəbinin direktor əvəzi, 1955-ci il təvəllüdlü Əliyev Fəxrəddin Kamil oğlunun yaşadığı evin həyətində asılmış vəziyyətdə meyitinin aşkar edilməsi faktına görə rayon prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanmışdır. Rayon prokurorluğu əməkdaşları tərəfindən hadisə yerinə və meyitə məhkəmə-tibb ekspertinin iştirakı ilə baxış keçirilmiş və digər zəruri prosessual hərəkətlər yerinə yetirilmişdir. Ölümün səbəblərinin müəyyənləşdirilməsi məqsədilə məhkəmə-tibb ekspertizası təyin edilmişdir. Cinayət işi üzrə hərtərəfli, tam və obyektiv istintaq aparılmaqla mərhumun ailə üzvləri, iş yoldaşları və digər şahidlər dindirilmişdir.

**Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir".**

**Mövzuya qayıdacağıq.**

❑ E.MƏMMƏDƏLİYEV




# Olimpiya çempionunun "Nömrə 1" supermarketləri bağlanır

## Firmalar borclarını almaq üçün qapıda dayanıb

**Olimpiya çempionu Elnur Məmmədliyə məxsus, Tiflis prospektində yerləşən "Nömrə 1" supermarketi bağlanıb. Salamzadə küçəsi 11 ünvanında yerləşən marketin qapısına qıfıl vurulub, mallar yığışdırılıb.**




Xatırladaq ki, "Nömrə 1" supermarketləri paytaxtın 6 yerində fəaliyyət göstərirdi. Musavat.com-un əməkdaşı mağazanın bağlanma səbəbini öyrənmək üçün Xətai rayonu, Həzi Aslanov küçəsindəki "Nömrə 1" supermarketində olub və vəziyyətlə maraqlanıb.

Market hələ ki müştərilərin üzünə bağlanmayıb. İçəri daxil olub, işin gedişatını izlədik. Başqa supermaketlərlə müqayisədə burada daha az müştəri gözə dəyirdi. Adətən kassanın ətrafında çoxlu müştəri olsa da, indi əksinə, marketdə seyrəklik hiss olunur.

Marketin aşağı mərtəbəsində də eyni mənzərənin şahidi olduq. Kifayət qədər geniş sahəsi olan supermarketdə satıcılar da az idi. Satıcı qıza yaxınlaşıb müdiriyyətlə görüşmək istədiyimizi bildirdik. O, müdiriyyətin yerində olmadığını, ancaq Akif adlı müdir əvəzedicisinin marketin yaxınlığındakı ofisdə olduğunu bildirdi.

Supermarketin bir addımlığındakı ofisin qarşısında çoxlu sayda adam toplaşıb. Onlara yaxınlaşanda məlum oldu ki, müxtəlif şirkətlərin, ərzaq firmalarının nümayəndələridir, bağlanmaqda olan marketdən qalıq borclarını almağa gəliblər. Otağın qarşısında təqribən 20-yə yaxın firma işçisi səhər saatlarından gözləyir, marketə verdikləri malların pullarını almağa çalışırlar.

Özümüzü təqdim etmədən söhbətə qulaq müsafiri olduq. Məlum oldu ki, market sahibi aldıqları malların pulunu şirkət nümayəndələrinə vermir, onları get-gələ salır. "Nömrə 1" supermarketinin 500 manatdan, 10 min manata qədər firma nümayəndələrinə borclu qaldığını öyrəndik.

**Adının çəkilməsini istəməyən şirkət nümayəndələrindən biri "Nömrə 1" supermarketlər şəbəkəsinin onları aldatdığını dedi:** "Tiflis prospektində mağazalardan biri bağlandıqdan sonra firmalara külli miqdarda borcları qaldı. İndi həmin marketə verdiyimiz malların pulunu almaqda çətinlik çəkirik. Elə adam var ki, 6 aydan çoxdur ki, borcunu ala bilmir. Bir söz deyəndə də "arxamız güclüdür" deyirlər. Artıq 1 həftədir ki, ofisin qabağında dayanıb, bizi qəbul etmələrini gözləyirik. Hələ də növbə çatmır ki, çatmır. Biz satıb xərclədikləri malların pulunu istəyirik".

**Narazı firma nümayəndələri bu gedişlə borclarını ala bilməyəcəklərini dedilər:** "Hər iki aydan bir mühasib dəyişir. Mühasibin biri ilə görüşürsən, bir müddət sonra gəlirik ki, onun yerinə başqa biri gəlib. Beləliklə aylardır, vaxt uzada-uzada bizi gecikdirirlər".

Məsələ ilə bağlı mağazanın mühasibat işlərini aparan Akif adlı şəxslə əlaqə saxlamağa çalışdıq. Mağazanın bağlanma səbəbini və firmalara olan borclar haqqında məlumat almaq istəsək də, köməkçisi "Akif müəllim danışmaq istəmir" deyib, qapını üzümüzə bağladı.

❑ Məğrur MƏRD
Foto müəllifindir

# "Oğlum ölüm aclığı zamanı ölə bilər"

## 11 gündür aclıq edən Tural Mustafayevin hekayəsində ilginc izlər, adlar və təfərrüatlar

**Xədicə İsmayılın məhkəmə prosesində iddiaçı qismində çıxış edən Tural Mustafayevin aclıq aksiyası davam edir. Bu barədə T.Mustafayevin atası Bulud Mustafayev musavat.com-a açıqlamasında bildirib. O deyib ki, oğlunun aclıq aksiyası 11-ci gündür davam edir. Tez-tez təcili yardım çağırdıqlarını, oğlunun vəziyyətinin isə gündən-günə pisləşdiyini deyən Bulud bəy son olaraq Ombudsman Aparatına da zəng edib: "Orda da mənim dərdimi dinlədilər. Sonra da dedilər ki, deyin, oğlunuz yemək yesin. Mən də dedim ki, oğlum məmur özbaşınalığı ilə üzləşdiyi üçün aclıq edir. Müalicəsi üçün ölkədən çıxmasına icazə verilmədiyi üçün etirazın bu formasına əl atıb".**

B.Mustafayev xatırlatdı ki, Xədicə İsmayılın 01 sentyabr 2015-ci ildə yekunlaşan məhkəməsində intihar həddinə çatdırma ilə bağlı iddia öz təsdiqini tapmadı. Ümumilikdə isə zərərçəkənə qarşı qadağa qoyulmur: "Məhkəmə də, iş də qurtardı. Sentyabrın 8-dən etibarən onun ölkədən çıxmasına qadağa götürülməli idi, amma götürülməyib".

**Müsahibimiz dedi ki, oğlu yanına həkim gətirilməsinə də icazə vermir:** "Tural deyir ki, ölməkdirsə, qoy, belə ölüm. Mən qorxuram ki, oğlum aclıq aksiyasında ölər".

**Bir neçə gün öncə T.Mustafayevin hazırda yaşadığı Göyçay Rayon Polis İdarəsindən və sahə müvəkkilliyindən onunla maraqlanıblar. Dünən isə təcili yardım çağıran Mustafayevlər ailəsinə birbaşa baş həkim gəlib və aksiyaçının durumu ilə maraqlanıb:** "Adətən sıradan həkimlər gəlir. Amma bu dəfə birbaşa təcili yardımın baş həkimi gəlmişdi. Maraqlandı, gedəndə də dedi ki, su içsə, hələ 7-8 gün də ac qala bilər".

Bundan başqa, B.Mustafayev dedi ki, ona Ombudsman Aparatından Aydın Səfixanlı adlı şəxs müraciət edərək bildirib ki, oğlunun durumu ilə bağlı Rüstəm Usubova müraciət edib. Həmin müraciətin bir nüsxəsini də Mustafayevlər ailəsinə yollayıb.

"Yeni Müsavat" isə oxucular üçün T.Mustafayevin kimliyini xatırladır. 2014-cü ilin dekabrından mətbuatın gündəminə gələn bu şəxs öncə AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayıldan şikayətçi olub. Onu intihar həddinə çatdıran şəxsin X.İsmayıl olduğunu iddia edərək, xanım jurnalistin həbsinə səbəb olub. X.İsmayıl həbs olunandan sonra isə bir-birinin ardınca fərqli, ziddiyyətli açıqlamalar, müsahibələr verib. Jurnalistin məhkəməsində isə iddiasından imtina edib, təzyiq qarşısında belə bir addım atdığını bildirib.

**Amma T.Mustafayev daha öncə "Yeni Müsavat"a verdiyi müsahibəsində iddia edib ki, X.İsmayılın cinayət işində adı hallandırılan adamların hamısı**



Tural Mustafayev

**şantaj olunub:** "Onlardan tələb olunub ki, bütün baş verənlərin günahının Xədicədə olması barədə ifadə versinlər. Məni rəhbər göstərərək bildiriblər ki baş verənlərin hamısında Xədicə günahkardır. İfadələrlə tanış olanlar bunu bilirlər. Vəkillər vəsatət qaldıranda bu barədə çox danışıblar. Onlardan tələb olunub ki, məhkəmə zalına gələrək, mən verdiyim ifadələri təsdiq eləsinlər. Yəni mənə istinad edərək bildirsinlər ki, mənimlə bağlı baş verən intihar hadisəsinin səbəbkarı Xədicə İsmayılovadır. Xədicə xanımın vəkilləri bu şəxslərin ifadələrinin cinayət işindən çıxarılması üçün vəsatət qaldırdılar, təmin olunmadı. Hər şey ortadadır. Əvvəlcədən bu iş qurama idi. Bilinirdi ki, nə nədir. Amma mənim müəyyən müddət susmağımın da səbəbi vardı ki, bu, hara qədər davam edəcək. Yəni kimlər daha çox sosial şəbəkələrdə və digər insanların arasında nələr deyəcəklər. Çox maraqlı oldu ki, həmin şəxslərdən bir neçəsi mənə qarşı böhtan olduğunu bilə-bilə, sübutların onların özündə olmasına baxmayaraq, bundan istifadə etmədilər. Məsələ də bu yerə gəlib çıxdı".

**T.Mustafayev bu şəxslərin gizli yolla çəkilmiş, özəl həyata dair videogörüntülərlə şantaj olunduğunu demişdi.**

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 90 (6411) 27 aprel 2016

**Aprelin 26-sında Bakıda BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılış mərasimi olub.**

**Forumun açılışında Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak edib. Forumda həmçinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Malta prezidenti Mariya Luiza Koleyro, BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nasir Əbdüləziz əl-Nasir, Belarus Milli Məclisinin sədri Mixayil Myasnikoviç, Qazaxıstan parlamenti Senatının sədri Kasım-Jormart Tokayev və digər yüksək vəzifəli şəxslər iştirak edirlər.**

# Bakı mühüm beynəlxalq tədbirə ev sahibliyi etdi

## Prezident İlham Əliyev beynəlxalq aləmə səsləndi: "Təəssüf ki, Ermənistan, sadəcə olaraq, bu qətnamələrə məhəl qoymur və onları yerinə yetirmir"





Azərbaycan Prezidenti İlham Əliyev forumun açılışında çıxış edib. "Trend"in məlumatına görə, dövlət başçısı deyib ki, Azərbaycan Sivilizasiyalar Alyansının vacib məsələlərini həll etmək üçün 140-dan artıq ölkə nümayəndəsinin Bakıda toplaşmasına görə fəxr edir: "Dini tolerantlıq, multikulturalizm həmişə burada olub. "Multikulturalizm" sözü yox idi, lakin ideyalar həmişə mövcud olub".

**Qarabağın işğalından danışan prezident deyib ki, Ermənistan işğal olunmuş torpaqlarda hər şeyi dağıdıb:** "ATƏT orada vəziyyəti müşahidə etmək üçün iki dəfə faktaraşdırıcı missiyasını göndərib və onların hesabatları dəhşətlidir. Hər şey dağıdılıb - bizim bütün binalarımız, tarixi abidələrimiz, məscidlər və qəbirlər. Burada, Bakının mərkəzində erməni xalqının dini irsini necə qoruduğumuzu görə bilərsiniz. Erməni kilsəsi bərpa olunub, o, tikildiyi yerdə yerləşir. Lakin işğal olunmuş ərazilərdəki bütün məscidlərimiz xaraba qalıb".

**Dövlət başçısı xatırladıb ki, beynəlxalq ictimaiyyət bu işğala son qoymaq üçün qətnamə və qərarlar qəbul edib:** "BMT-nin Təhlükəsizlik Şurası, ali beynəlxalq orqan işğal olunmuş ərazilərdən Ermənistan qoşunlarının qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Təəssüf ki, Ermənistan, sadəcə olaraq, bu qətnamələrə məhəl qoymur və onları yerinə yetirmir".

"Qədim mədəniyyətlərin və xalqların birgə yaşadığı Azərbaycandayıq. Prezident İlham Əliyevin təşəbbüsü ilə bu il Azərbaycanda "Multikulturalizm ili" elan edilib".

**APA-nın məlumatına görə, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib. Ərdoğan bildirib ki, BMT-nin Sivilizasiyalar Alyansı ilə bağlı təşəbbüsünü 11 il əvvəl Türkiyə İspaniya ilə birlikdə irəli sürüb:** "Günümüzdə 140-dan çox ölkə bu təşəbbüsə dəstək verir. Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının Ali nümayəndəsi Nasir Əbdüləziz əl-Nasirin rəhbərliyi ilə bu işlər görülür. Tolerantlıq və dialoq hədəflərimizə dəstək verən bütün dost ölkələrə təşəkkür edirəm. Ancaq hələ də alyansın hədəflərinə çatmaqdan çox uzağıq. İnsanların inancları, etnik mənsubiyyəti ilə bağlı ayrımçı düşüncələri hələ tam ortadan qaldıra, terrorizmə qarşı bizdən gözlənilən ortaq mücadiləni yetəri qədər ortaya qoya bilməmişik. Suriyada, Fransada, Belçikada, İspaniyada, Türkiyədə, Pakistanda ard-arda bombalar parlayarkən məqsədimizi ortaq fikrə, ideyaya çevirməyi bacarmadıq. Zorakılığın qarşısının alınması üçün dialoqu inkişaf etdirməyin zəruriliyini bütün dünyaya qəbul etdirə bilməmişik. Etnik və dini fərqliliyin təhdid deyil, zənginlik olduğu barədə anlayışı yaymağı bacarmamışıq".

**Ərdoğan qeyd edib ki, bu təhlükəli gedişə son vermək zəruridir:** "Dini və etnik səbəblərlə qarşıdurmalar nəticəsində 60 milyondan çox insanın evindən didərgin düşdüyü reallıqda yaşayırıq. Miqrantların bir qismi sulara gömülür, bir qismi isə getdikləri yerlərdə xoş qarşılanmır. İslam adına terror törədənlər ən böyük pisliyi müsəlmanlara qarşı törədirlər. Bu terror təşkilatlarının əli ilə qədim şəhərlər xarabalığa çevrilir, mədəniyyətlər məhv olur. Qərb ölkələrində bu səbəbdən müsəlmanlara mənfi baxış artır. Fərqli mədəniyyətə, dinə malik insanlar arasında uçurumların dərinləşməsi daha böyük fəlakətlərə aparır. Terrorun, terror təşkilatlarının dini, bölgəsi yoxdur. Məsum insanların həyatına qəsd etməyi heç bir din, vicdan qəbul etməz. Xüsusən İslam mahiyyətcə sülh dinidir. Belə bir din terrora dəstək verərmi? Bizim dində terrora yer yoxdur. İŞİD və digər terror təşkilatlarının İslamla heç bir əlaqəsi yoxdur. Ölənin Allahu-Əkbər, öldürənin də Allahu-Əkbər dediyi bir anlayış ola bilərmi?! Mədəniyyətlərarası İttifaq, ortaq səylərimizlə bu təhdidlərin qarşısını ala bilərik. İlk növbədə, məzhəbçiliyə qarşı mübarizə aparmalıyıq. İkincisi, irqçilik çox ciddi təhdid olaraq terrora zəmin yaradır. Məzhəbçiliyə və irqçiliyə qarşı orta mübarizə apara bilməsək, terrorla uğurla mübarizə apara bilmərik. Bütün irqlərin nümayəndələrinə insan kimi baxmalı və qəbul etməliyik".

Türkiyə prezidenti qeyd edib ki, terrora qarşı qlobal ittifaq yaradılmalıdır.

BMT Sivilizasiyalar Alyansının Dostları Qrupunun yüksək səviyyəli iclasında Bakı Bəyannaməsi qəbul olunub. Sənəddə qeyd olunur ki, Bakı Bəyannaməsi mədəni və dini müxtəlifliklərə hörmət və anlaşmanın vacibliyini qeyd edir, müxtəlif mədəniyyətlər, sivilizasiyalar və insanlar arasında tolerantlıq, hörmət, dialoq və əməkdaşlığı təbliğ edir.

Bəyannamədə sülh, təhlükəsizlik və inkişafın genişlənməsində universal dəyər kimi Sivilizasiyalar Alyansının moderatorluğunu genişləndirəcəyi vurğulanıb. Mədəniyyətlərarası və dinlərarası dialoqun, tolerantlıq, plüralizm və qarşılıqlı hörmət sahəsində əməkdaşlığın vacibliyi qeyd olunub. Günahsız insanların ölümünə, dağıntılara və insanların qaçqın düşməsinə səbəb olan, dünyanın müxtəlif yerlərində qeyri-tolerantlıq, zorakı ekstremizm, zorakılıq və terrorizm aktlarından narahatlıq ifadə olunur.

❑ **Cavid TURAN**

# Ərdoğandan Putinə tikanlı mesaj- "Terrorçuları qırmızı xalçada..."

## Toğrul İsmayıl: "Türkiyə prezidenti məsələni şişirtmək istəmədi"

**Cari il ərzində, nəhayət, üçüncü cəhddən sonra Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri baş tutdu. Bundan əvvəl planlaşdırılan səfərlər qardaş ölkədə törədilən xain terror əməlləri nəticəsində realaşmamışdı, əvəzində Azərbaycan prezidenti qardaşlıq jesti edərək Ankaraya səfər etmişdi.**



Aprelin 25-26-sında xanımı ilə Bakıda olan Türkiyə prezidenti Ərdoğanla Azərbaycan prezidenti İlham Əliyev arasında yüksək səviyyədə görüş olub. Səfərin sonuncu günü isə Türkiyə lideri Birləşmiş Millətlər Təşkilatının (BMT) Sivilizasiyalar Alyansının VII Qlobal Bakı Forumunun rəsmi açılış mərasimində çıxış edib. Türkiyə prezidenti Bakıdan Rusiya prezidenti Vladimir Putinə müraciət edib. Ərdoğan Putini Əsəd rejimini dəstəkləməməyə çağırıb. Bildirib ki, Suriyada öz xalqını barel bombaları ilə öldürən bir terrorçu var. "Bəs bu terrorçuları qırmızı xalçalarla qarşılayanlar, silah yardımı edənlər məsuliyyət daşımırmı? Suriyada artıq qruplar arasında terror deyil, dövlət terroru var. Onlar öz xalqını bombalayırlar" deyə, Türkiyə prezidenti bildirib. Ərdoğan deyib ki, Türkiyə terrorla mübarizədə əlindən gələni edir. Ancaq diqqətçəkən budur ki, Türkiyə prezidenti Qarabağ ətrafında baş verənlərə toxunmadı. Hər halda, Bakıda onun işğalçıya və onu müdafiə edənlərə kəskin bəyanatı gözlənilən idi.

**Politoloq Toğrul İsmayıl da təsdiq edir ki, Türkiyə prezidenti məsələdən bəhs etmədi:** "Məncə, məsələni şişirtmək istəmədi. Bunu Azərbaycan tərəfi də istəməyə bilər. Hər halda, forumdan öncə Azərbaycan prezidenti ilə görüşmüşdü. Mən də belə hesab edirəm ki, bu məsələnin şişirdilməsi Azərbaycanın işinə yaramırdı".

**Ancaq Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Azərbaycanla bağlı konkret mesajlar verib.** "Biz bütün şərtlərdə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirik. Qarabağ problemi, Azərbaycanın işğal olunmuş torpaq problemi BMT və digər təşkilatların qərarlarında olduğu kimi, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində diplomatik və sülh yolu ilə həll olunmalıdır" deyə, nazir bildirib. O, Minsk Qrupu həmsədrlərinin üzərinə vacib vəzifələr düşdüyünü bildirib: "Əgər onlar istəsələr, bu problem qısa müddətdə həll oluna bilər. Ermənistan siyasi həll istəmədiyi üçün atəşkəsi pozub. Azərbaycan birtərəfli qaydada atəşkəs elan edərək münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu bütün dünyaya göstərdi. Ermənistanın bu mənfi yanaşması heç kim tərəfindən mükafatlandırılmamalıdır. Bizim bu məsələ ilə bağlı mövqeyimiz son dərəcə qətidir. Biz münaqişənin sülh yolu ilə həllini istəyirik. Amma hər zaman qardaş Azərbaycanın yanındayıq".

**Politoloq Arzu Nağıyev isə "Yeni Müsavat"a açıqlamasında Türkiyə liderinin Bakıya səfərini yüksək qiymətləndirdi:** "Bu səfərin baş tutması Türkiyə üçün də mühüm əhəmiyyət kəsb edirdi. Çünki belə bir formatda forumun keçirilməsi ideyası məhz Türkiyə və İspaniyaya aiddir, buna görə də bir mühüm əllif kimi iştirakı mütləq idi. Bundan başqa, açılışda öz bəyanatında da Ərdoğan sülhsevər tərəfdaşlarına və əks tərəfə də səsləndi və müəyyən bir mesaj da verdi. Ərdoğanın səfəri Rusiya-Türkiyə və ümumiyyətlə, regionda baş verən hazırkı məsələlərlə bağlı, o cümlədən Dağlıq Qarabağ münaqişəsi və son dərəcədə gərginləşən Azərbaycan - Ermənistan münasibətləri fonunda Türkiyənin Azərbaycanın strateji tərəfdaşı və ən yaxın müttəfiqi olduğunu göstərdi. Belə bir şəraitdə bu, çox mühüm əhəmiyyət kəsb edirdi".

**Yeri gəlmişkən, eyni gündə Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalı MHP-nin parlament qrupunun həftəlik toplantısındakı çıxışında Azərbaycanı Qarabağ savaşında birmənalı dəstəklədiyini deyib. Aznews.az xəbər verir ki, o, eyni zamanda Azərbaycan xalqına və hakimiyyətinə mesaj ünvanlayıb:** "Türk milləti hər zaman Azərbaycanın yanında və arxasında olmuşdur, bundan sonra da soydaşlarını heç bir şərt altında yalqız buraxmayacaqdır. Qubada səslənən balaban, Xızıda dilə gələn tar, Ərzurumda vuran davulun, İstanbulda ötən neyin əkiz qardaşıdır. Coğrafiyamız, dövlətlərimiz ayrı ola bilər, ancaq bir millətin, ürəyi bir vuran övladlarıyıq. 4 gün sürən döyüşlərin ardından Azərbaycanın Lələtəpə kimi strateji önəm kəsb edən məntəqəni düşməndən azad etməsindən sevinc və məmnuniyyət, qürur duyduğumuzu təkrar bildirmək istəyirəm".

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 90 (6411) 27 aprel 2016



# Birlik resepti - Astanadakı bizimkilər vəhdətin astanasında

Xalid KAZIMLI

**Jurnalistlər ölkə xaricinə gedəndə bir işləri də müsafir olduqları ölkədəki diaspor təşkilatları ilə görüşmək, onların problemləri ilə maraqlanmaq, təşkilatların həmin ölkədəki səfirliyimizlə münasibətlərinin nə yerdə olduğunu öyrənmək olur.**

Əvvəllər (15-20 il qabaq) bu o qədər də aktual məsələ deyildi. Birincisi, ona görə ki, bir çox ölkələrdə həmvətənlərimiz yox idi. İkincisi, olanlar da siyasi fəallar deyildilər, əsasən ticarət-xidmət sahələrində çalışırdılar və ictimai-siyasi həyatla maraqlanmırdılar. Üçüncüsü, diaspor təşkilatlarının vətənə xidmət sahəsində oynaya biləcəyi rolu anlayan, bilən az idi.

Ancaq bədnam qonşularımız öz həyasızlıqları, məkrli siyasətləri ilə bizi də ayıltdılar. Bizimkilər anladılar ki, məsələ adamın özünü bataqlıqdan, qanqallıqdan xilas edib gülüstana, cənnətməkan ölkələrə, firavan həyata çıxarmasında deyil, geridə qalan qohum-qardaş, dost-tanış, eloğlular və həmvətənlər üçün də bir iş görmək lazımdır. İnsan nə qədər eqoist varlıq olsa da, bir gün başa düşür ki, əsl insan bir az da başqalarını, ən azı əzizlərini, yaxınlarını düşünməlidir.

Hazırda yaxın-uzaq ölkələrdə pis-yaxşı diaspor təşkilatlarımız var və yolumuz düşəndə hamısı ilə olmasa da, bir neçə təmsilçisi ilə görüşürük.

Qazaxıstanın paytaxtı Astanada da belə etdik. Öyrəndik ki, Rusiyada, Ukraynada, digər Avropa ölkələrindəki diaspor təşkilatlarımız arasında olan münasibətin təxmini bənzəri Qazaxıstandakı təşkilatlarımızın arasında da var.

Həmvətənlərimizin beynini çulğayan, qəlblərinə hakim kəsilən intriqaların, çəkişmələrin sonu nə vaxt gətəcək, bilən yoxdur. Hamısı bir-biri ilə eyni cür yola getmirlər, eyni cür çəkişirlər, bir-birini eyni cür bəyənmirlər, eyni cür ittiham edirlər. Kimin, hansı tərəfin haqlı olduğunu heç cür bilmək olmur. Adam axırda o fikrə gəlir ki, heç biri haqlı deyil. Çünki ortada vətən söhbəti olandan sonra bütün intriqalar əfsanədir.

Qazaxıstandakı diaspor təşkilatlarımızın arasındakı münasibətlər haqqında az-çox məlumat alandan sonra 1975-ci ildən bəri Astanada yaşayan tarix elmləri doktoru, Tarix və İctimai Elmlər Akademiyasının akademiki Vidadi Salahovla və iş adamı Səyyaf İsmayılovla görüşərkən, açığı, onların bu barədə söz salacağını gözləyirdik. Amma ağsaqqal Vidadi müəllim ustalıqla bu söhbətdən yayındı, evin sirrini evdə saxlamağı üstün tutdu. Səyyaf İsmayılov da həmvətənlərinin dalınca danışmaq istəmədi, eləcə dedi ki, keşkə, biz də ermənilər kimi mütəşəkkil ola bilsəydik...

Azərbaycanın Qazaxıstandakı səfirliyində gənc səfirimiz Rəşad Məmmədovla bu xüsusda da söhbətləşdik. Bizə, dörd jurnalistə olduqca erudisiyalı, vətənpərvər, eləcə də səmimi təsir bağışlayan səfir bu məsələ xüsusunda nikbin olduğunu gizlətmədi. O, diaspor təşkilatları arasındakı münasibətləri etibarlı müstəvidə çözə biləcəyinə dair reseptini açıqladı. Məlum oldu ki, bundan əvvəl Aktauda konsul olarkən o, yerli diaspor təşkilatlarımızın vəhdətini təşkil edə bilib və indi eyni şeyi Astanada və bütün Qazaxıstanda da görmək niyyətindədir.

Rəşad Məmmədov deyir ki, bəzən bir çoxları səfirliyin işinin 95 faizinin icmalçılıqla bağlı olduğunu düşünürlər, amma əksinədir, bu səfirliyin ümumi işinin 5 faizi həcmindədir. Səfirin inamına görə, əsas məsələ diaspor təşkilatları arasında tərəf tutmamaq, ayrı-seçkilik etməmək, yaranması nəzərdə tutulan vahid təşkilata kiminsə rəhbər seçilməsinə təzyiq yolu ilə nail olmamaq, bütün iddialı namizədlərin özlərini göstərməsinə şərait yaratmaqdır.

5 ildən bəri Astanada yaşayan bir həmvətənimizdən öyrəndik ki, əvvəlki səfirin vaxtında vəziyyət xeyli fərqli olub. Səfirliyə pənah gətirən həmvətənlərimiz qapı astanasında qalır, elçiliyimizin bəzi məsul şəxsləri onlara gəlir mənbəyi kimi baxırmışlar. Hətta bəzi soydaşlarımızın biznesinin zorla əlindən alınması təşəbbüsü göstərənlər də olub.

Son hadisələr də göstərdi ki, bu məsələyə barmaqarası baxmaq olmaz. Bizim durumda ölkələrin güclü və effektiv silahlarından biri də xaricdəki diaspor təşkilatlarıdır. Onlar güclü və mütəşəkkil olsalar, həm yaşadıqları ölkələrdə bir-birlərinin problemlərinin həllinə yardımçı olarlar, həm də dar gündə ortaya iradə qoyub ana vətən, ata yurd üçün bir iş görə bilərlər.

Ümid edək ki, səfir Rəşad Məmmədovun diaspor təşkilatlarının vəhdətini təşkil etmək istiqamətində istifadə etdiyi resept onun digər həmkarları tərəfindən də öyrəniləcək və tətbiq ediləcək.

# Tağı Əhmədovun batan 11 milyonu - dəyirmanın suyu hardan gəlir?

## Metropolitenin sabiq rəisinin bankda 8 milyonu batıb, 3 milyon isə Akif Çovdarov şantaj yolu ilə ondan zorla alıb

**Tağı Əhmədov tez-tez ölkə gündəmində olan dövlət məmurlarından olub. Bakı Metropoliteninin rəisi vəzifəsində çalışdığı dönəmdə əsasən jurnalistlərlə "atışmaları" ilə yadda qalıb. Tağı Əhmədov vəzifədən getdikdən sonra yalnız rəsmi tədbirlərdə görünür. Bu zaman isə jurnalistlərin suallarını cavablandırmaqdan imtina edir.**



Hazırda Yeni Azərbaycan Partiyasının Yasamal Rayon Təşkilatının sədri olan Tağı Əhmədov yenə medianın gündəmindən düşmür. Bu dəfə açıqlamaları, jurnalistləri acılaması ilə yox, milyonları ilə. Bugünlərdə mətbuatda yayılan məlumata görə, adı "MTN işi"nin qurbanlarının sırasında hallanan Tağı Əhmədov MTN-in baş idarə rəisi vəzifəsini tutmuş general Akif Çovdarova 3 milyon manat verib. Bu məbləğin ondan şantaj yolu ilə alındığı bildirilir. Hətta iddia olunur ki, T.Əhmədov yaxın zamanlarda hazırda həbsdə olan A.Çovdarovla üzləşdiriləcək.

Məlumatlara görə, T.Əhmədov A.Çovdarovun təhdid və təzyiqləri qarşısında ona 3 milyon manat verməyə məcbur qalıb. T.Əhmədov hüquq-mühafizə orqanlarına müraciətində bildirib ki, A.Çovdarov onu şantaj edib və həbslə hədələyib. Bütün yaxın qohumlarına, o cümlədən Nizami Rayon Məhkəməsində hakim işləyən kürəkəninə qarşı repressiv addımlar atacağını bildirib. Yazılanlara görə, Tağı Əhmədov iki oğlu ilə də hədələnib.

Qeyd edək ki, T.Əhmədovun iki oğlundan biri Xətai Rayon Məhkəməsində, digəri Xarici İşlər Nazirliyində işləyir. Mətbuatda dərc olunan yazılarda vurğulanır ki, T.Əhmədov ona olan hədələrdən ehtiyat etdiyi üçün A.Çovdarovun təklifi ilə razılaşmaq məcburiyyətində qalıb.

Onu da əlavə edək ki, T.Əhmədov A.Çovdarovun qurban seçdiyi tək məmur olmayıb. Adları hələ ki açıqlanmayan bir sıra məmurların MTN çetesi tərəfindən şantaj olunduğu yayılan məlumatlar arasındadır.

Qayıdaq T.Əhmədovun digər milyonlarına. A.Çovdarova 3 milyon manat vermək məcburiyyətində qalan T.Əhmədovun bir müddət əvvəl bağlanan "Texnikabank"da 8 milyon manat itirdiyi də məlumdur. Bu barədə fevral ayında "Yeni Müsavat" qəzetində yazı dərc edilmişdi.

İndi həm mətbuatda, həm də cəmiyyətdə sual doğuran məsələ T.Əhmədovda milyonlarının mənbəyidir. Sual edilir ki, bu dəyirmanın suyu hardan gəlir?

Qeyd edək ki, T.Əhmədov 1998-2014-cü illər arasında Bakı Metropoliteninin rəisi vəzifəsində çalışıb. Onun hazırkı əmlakının milyonlarla dollar dəyəri olduğu deyilir. T.Əhmədov 16 il ölkənin ən gəlirli sahələrindən birinə rəhbərlik edib. Əsasən də metro keçidlərindəki ticarət obyektləri T.Əhmədov və qohumlarının nəzarətində idi. Mətbuatın dəfələrlə yazdığına görə, T.Əhmədov var-dövlətinin əsas hissəsini metro ticarətindən əldə edib. Bakı Metropoliteninin ticarətdən gələn illik gəliri isə 10 milyon manatlarla ölçülürdü. Bu illər ərzində T.Əhmədov yığdığı sərvəti həm ölkədəki, həm də xaricdəki banklara əmanət olaraq yerləşdirib. Sabiq rəisin Bakıda və Naxçıvanda da bir neçə dəbdəbəli villalarının olduğu bildirilir.

Onu da əlavə edək ki, T.Əhmədov haqqında yazılanlara münasibət bildirməkdən imtina edir. Növbəti dəfə T.Əhmədovla əlaqə saxlamağa, haqqında yazılanlara münasibətini öyrənmək istəsək də telefon zənglərimizə cavab vermədi.

Baş Prokurorluğun mətbuat xidməti də T.Əhmədovun A.Çovdarova 3 milyon manat verməsi haqda yayılan xəbərlərə münasibət bildirməkdən imtina edib.

❑ **İ.MURADOV**

# Corc Kluninin İrəvan səfəri və Xədicə İsmayılı müdafiəsi...

**Fariz Namazlı:** "Əsas odur ki, onun həyat yoldaşı Amal Kluni Ermənistana getməyib"

**Mətanət Əzizova:** "Mən istəməzdim Amalın adı Xədicənin adı ilə bir yerdə hallansın"

**Son günlərin ən səs-küy yaradan hadisələrindən biri də heç şübhəsiz, Hollivud ulduzu Corc Kluninin Ermənistana gedərək, orada saxta soyqırım tədbirlərinə qatılmasıdır. Amma hökumətyönlü media bu xəbəri daha çox "ermənipərəst aktyorun arvadı Xədicə İsmayılovanı müdafiə edir" şəklində təqdim etdi.**



Xatırladaq ki, aktyorun həyat yoldaşı Amal Kluni Avropa İnsan Hüquqları Məhkəməsində jurnalist Xədicə İsmayılı müdafiə edəcək. Bu isə xanım jurnalistə qarşı "qara piar" kampaniyası aparmaq istəyənlər üçün güclü motiv yaradır.

Məsələdə maraqlı məqamlardan biri də Kluni amilinin X.İsmayılın müdafiəsinə mənfi təsirinin olub-olmayacağı ilə bağlıdır. Bəs jurnalist həyat yoldaşı ermənipərəst olan bir vəkilin müdafiəsindən imtina edə bilərmi? Bu məqam onunçün prinsipial əhəmiyyət daşıyırmı? Yaxud Amal Kluni işğalçı Ermənistanla bağlı əri ilə eyni mövqeni bölüşürmü?

Hazırda Praqada yaşayan hüquq müdafiəçisi Mətanət Əzizova sosial şəbəkədəki statusunda bu məsələyə fərqli münasibət bildirib. M.Əzizova yazıb ki, insanlar Amal Klunini gözlərində çox böyüdüblər: "Sabah Amal yox, Məmməd olsa yenə də böyüdəcəksiniz. Prinsip söhbətinə görə (mənəvi ilə səhv salmayın). Bu məsələdə sizin üçün əsas söz Xədicədir. Yəni əgər Amal Xədicəni müdafiə edirsə, o, artıq bizim qəhrəmandır. Səhv addım olub-olmaması müzakirə olunmur. Araşdırmadan. Amma mənim üçün Amal Kluni ilk öncə Hollivud aktyorunun həyat yoldaşıdır. Sonra bilmişəm ki, vəkildir. Çox gözəl, bu gün vəkillərin sayı, maşallah, gündən-günə artır. Bilirik ki, çoxları üçün "kim daha çox ödəsə" əsas motivdir. Qınamıram. Azərbaycana, siyasi məhbuslara görə ürəyi yanır deməyin, inandırıcı deyil. Və ən əsası, Xədicənin müdafiəsində vəkillik kralı olmaq vacib deyil. Bu iş haqda bir az məlumatı olan vəkil sənədləri rahat hazırlayıb, Avropa Məhkəməsinə göndərib Xədicəni müdafiə edə bilər. *(Nümunə - Azərbaycan vəkillərinin minlərlə udulan işləri)* Amal Kluninin əsas işi gözəl siması ilə Xədicə haqda məlumatın yayılmasıdır. Bunun üçün ayrılan pulla bir neçə QHT bu işi daha effektiv görə bilər. Və sözün qısası, mən istəməzdim Amalın adı Xədicənin adı ilə bir yerdə hallansın. Amal Kluni Xədicənin adını çəkəndə hansı mesajla olursa-olsun, qıcıqlanıram. Xədicənin işini bu xanım mənim aləmimdə kiçiltdi. Bu boyda dünyada ayrı adlı-sanlı vəkil tapılmadı?"

**Amma X.İsmayılın vəkili Fariz Namazlının fikrincə, Corc Kluninin Ermənistana getməsi ilə Amal Kluninin xanım jurnalisti müdafiə etməsi arasında heç bir əlaqə yoxdur:** "Əsas odur ki, Amal Kluni Ermənistana getməyib. Corc Kluni deyib ki, Amalın daha vacib işləri var və o, Xədicə İsmayılın müdafiəsi ilə məşğuldur. Amal hökumət rəsmiləri ilə yazışır, beynəlxalq KİV-lərə bu məsələ ilə bağlı müsahibə verir. Hazırda sırf Xədicənin müdafiəsi ilə məşğuldur. Ərinin hansısa səfərinin Amalın mövqeyinə təsiri yoxdur. Corc Kluninin Ermənistana getməsi isə 2014-cü ildən məlumdur. O layihədə həmin ildən iştirak edir. Amma Corc Kluninin düşmən ölkəyə getməsi Amal Kluninin Xədicənin müdafiəsini zəiflədəcəyi anlamına gəlmir. Bu, yanlış fikirdir".

**F.Namazlı A.Klunini vəkil kimi də yüksək qiymətləndirdi. Dedi ki, xanım Kluni X.İsmayılın müdafiəsi ilə bağlı çox ciddi işlər aparır:** "Mən Kluninin hökumətlə yazışmasındakı qeydləri oxumuşam. 13 səhifəlik kommunikasiyaya 140-150 səhifəlik cavab verib. Amma mən görürəm ki, bəzi KİV-lər Kluninin Xədicə xanımı müdafiəsindən narahatdırlar. Maraqlıdır, bu narahatlığın səbəbi nədir? Daha çox ifşadan narahatdılar, deyəsən".

Xatırladaq ki, A.Kluni daha öncə Vikileaks saytının yaradıcısı Assancı, eləcə də Ukraynanın keçmiş baş naziri Yuliya Timoşenkonu müdafiə edib.

**X.İsmayıl vəkili vasitəsilə deyib ki, Amalın etnik mənsubiyyəti onu düşündürmür. Jurnalistin fikrincə, normal insanlar "haralısan" sualını vermirlər, etnik mənsubiyyətlə maraqlanmırlar.**

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 90 (6411) 27 aprel 2016

# Yunusların ölkədən çıxmasına Mehriban Əliyevanın şərait yaratmasının səbəbləri

## Tanınmış hüquq müdafiəçisi olan ər-arvadın xaricə getmələrinin detalları məlum olub; İntiqam Əliyev və Rauf Mirqədirov barədə də belə qərar verilə bilər...

**Hüquq müdafiəçisi Leyla Yunus və həyat yoldaşı Arif Yunusun ölkədən çıxmalarına necə icazə verildiyi, nəhayət, məlum olub. "Turan" informasiya agentliyinin yaydığı məlumata görə, Yunusların müalicə üçün ölkədən çıxışı birinci ledi Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilmiş dialoqdan sonra baş verib.**

M.Əliyevanın nümayəndələri onun Yunusların müalicə üçün xaricə getməsinə, habelə digər məsələlərin həllinə yardım etməyə hazır olduğunu onların diqqətinə çatdırıb. Yunuslara onların müalicədən sonra vətənə qayıtması və gələcəkdə ictimai və elmi fəaliyyətləri üçün şərait yaradılması istəyi çatdırılıb.

Leyla və Arif Yunus onları müalicə edən həkim Kristian Vittin müşayiəti ilə aprelin 18-də gecə saat 2-də Bakını tərk ediblər. Onlar İstanbula, oradan da Hollandiyanın paytaxtı Amsterdam şəhərinə gediblər. Orada qızları Dinara ilə iki gün keçiriblər, daha sonra isə Berlin klinikasına aparılıblar, orada müalicə alırlar. Hollandiyada Yunusları müşayiət edən şəxs bildirib ki, Arifin vəziyyəti qeyri-stabil idi və o, hipertoniya krizisi ilə əlaqədar dəfələrlə huşunu itirib. Almaniya klinikasında birinci növbədə Bakıda həbsdə olduğu müddətdə onun boynunun arxasında əmələ gəlmiş şişin təcrid edilməsi üzrə tədbirlər görülüb. Fevralın 11-də Yunusların müalicə üçün ölkədən çıxmasına icazə verməyən Yasamal Rayon Məhkəməsi bu icazəni aprelin 18-də verib. Arif Yunus hipertoniyadan əziyyət çəkir, Leyla Yunus isə hepatit, diabet, pankreatit və öd kisəsində daşdan əziyyət çəkir. Həbsdən sonra bu xəstəliklər kəskinləşib. Hər ikisinin təcili cərrahiyyə və müalicəyə ehtiyacı var.

**"Leyla və Arif demokratiya və insan hüquqları uğrunda mübarizə naminə öz rifahlarını və təhlükəsizliklərini ortaya qoyublar. Onlar Azərbaycanda vəziyyəti düzəltmək üçün mübarizə aparıblar. Yaxşı ki, indi onlar Azərbaycanda insan hüquqları sahəsində vəziyyəti yaxşılaşdırmaq uğrunda uzunmüddətli mübarizədən sonra istirahət edə biləcəklər"**, deyə Niderland XİN rəhbəri Bert Kunders bildirib.



### Səidə Qocamanlı: "Bəziləri Avropada məskunlaşan kimi ölkəmiz əleyhinə iş aparmağa başlayırlar"

Əslində qalsa, Yunuslar barədə belə bir qərarın veriləcəyi gözlənilən idi. Xatırladaq ki, Yunuslar türmədən çıxdıqdan sonra hakimiyyətin ünvanına heç bir tənqid söyləməyiblər, hətta susublar. Həbsdən öncə L.Yunusun iqtidara qarşı necə sərt mövqeyi yəqin çoxlarının yadındadır. Onun həbsdən sonra da eyni cür davranacağı güman edilsə də, tam əksi baş verdi. Hətta Leyla Yunus ötən ay ölkə başçısına azadlığa çıxdığı üçün təşəkkür də etmişdi. Məhz bu təşəkküründən sonra L.Yunus sosial şəbəkələrdə əsasən AXCP üzvləri olan şəxslər tərəfindən mənəvi terrora məruz qalmışdı.

Qeyd edək ki, hakimiyyət tərəfindən rəqib düşərgəyə qarşı belə diqqətəlayiq təşəbbüs ilk dəfədir göstərilmir. Xatırlayırsınızsa, ötən ay rəhmətə gedən xalq yazıçısı Maqsud İbrahimbəyovun yas mərasimində üzərində cinayət işi olmasına baxmayaraq, onun qardaşı, mühacirətdə yaşayan Milli Şuranın fəxri sədri Rüstəm İbrahimbəyov da iştirak etmişdi. R.İbrahimbəyovla bağlı da bu xeyirxah addımın ölkənin birinci xanımı Mehriban Əliyeva tərəfindən atıldığı deyilir.

Azərbaycanın birinci xanımının Yunuslarla bağlı təşəbbüsü ölkə ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanıb.

**Hüquq müdafiəçisi Səidə Qocamanlı "Yeni Müsavat"a açıqlamasında həmkarları barədə verilən qərarı alqışladıqlarını bildirib:** "Təcrübədə bir neçə dəfə olub ki, Mehriban xanım və ölkə başçısının təşəbbüsü ilə neçə-neçə şəxsə humanizm göstərilib. Bu, təkcə ölkədən çıxmaqla bağlı deyil. Yunuslarla bağlı təşəbbüsü yalnız alqışlamaq lazımdır. Bildiyiniz kimi, Leyla Yunusun işi mürəkkəb idi. Elə-belə məsələ deyildi. Onların xəstəliyini nəzərə alaraq, ölkədən çıxışlarına icazə vermək sırf insanlıqdan, humanizmdən, digər insanın dərdinə şərik olmaqdan irəli gəlir. Hüquq müdafiəçisi kimi bunu yüksək dəyərləndirirəm. Sadəcə, istəməzdim ki, bundan istifadə edərək, xaricdən ölkəmiz əleyhinə müxtəlif fikirlər səslənsin, addımlar atılsın. Çünki olubdur ki, Azərbaycandan çıxıblar, Avropada məskunlaşandan sonra ölkəmiz əleyhinə iş aparmağa başlayıblar. Bu hal ilk dəfə deyil. Bu həyatı yaşadıqca, belə məqamları görürük. Düşünürəm ki, Leyla və Arif Yunusların səhhətləri çox ağır idi və müalicəyə ehtiyacları var. Ən əsası odur ki, onlar yeganə övladlarına qovuşublar. Valideyn üçün bundan böyük xoşbəxtlik ola bilməz. Övladına qovuşma xəstəlikləri geridə qoyur. Çox arzulayardım ki, İntiqam Əliyevlə bağlı da belə bir yol açılsın. Onun da xəstəlikləri ciddidir. Bu yol Rauf Mirqədirova da açılmalıdır. O da öz övladlarını, ailəsini görməlidir. Rauf heç bir suçun sahibi olmayıb. Sadəcə, Yunusların işi üzrə həbs olunmuşdu. Həbsdə olduğu 23 ay ömründən getdi. Onun da ciddi xəstəliyi var. Həbsdə olarkən Raufun səhhəti ilə bağlı çox narahat idik. Siyahımızda qalan bir neçə məhbusun da azad edilməsini arzulayıram. Siyahı yazmaqdan qurtulaq və daha önəmli işlərlə məşğul olaq".

Sonda xatırladaq ki, Yunuslar kimi məhkəmə qərarı ilə azad edilən, cəzaları 5 il şərti cəza ilə əvəzlənən "Ayna-Zerkalo" qəzetlərinin əməkdaşı Rauf Mirqədirov və hüquq müdafiəçisi İntiqam Əliyevin də yaxın gələcəkdə ölkədən çıxışlarına icazə veriləbiləcəyi barədə xəbərlər yayılıb.

❑ **Cavanşir ABBASLI**



# Antiböhran Koalisiyası bu gün toplanır

## Aprelin 28-də Rusiya işğalı və Qarabağ problemi mövzusunda dəyirmi masa keçiriləcək

**Bu ilin fevralında bir sıra müxalifət partiyaları tərəfindən yaradılan Antiböhran Koalisiyası ənənəvi müzakirələrini davam etdirir. Koalisiya Qarabağla bağlı dəyirmi masa keçirməyi və burada Rusiya işğalı məsələsini bir daha gündəmə gətirməyi də planlaşdırır.**

Bu barədə musavat.com-a koalisiyada təmsil olunanlar verib. Bildirilib ki, koalisiya ölkədəki ictimai-siyasi durumu geniş şəkildə müzakirə edir və toplantılarda ətraflı müzakirələr və təhlillər aparılır.

**KXCP sədri Mirmahmud Mirəlioğlunun** sözlərinə görə, koalisiya iştirakçıları vaxtaşırı toplantılar keçirirlər: "Bir sıra məsələləri müzakirə edirik. Azərbaycan reallıqlarına uyğun hərəkət edirik. İndiki vaxtda ordumuza dəstək və hakimiyyətdən tələb gündəmdədir. Bu istiqamətdə işlər gedir, müzakirələr aparılır. Yəni adi işçi qaydada toplaşıb fikir mübadiləsi aparırıq. Hər həftənin üçüncü günü ənənəvi toplantımız da keçirilir. Bir sıra qərarlar və gəlişmələr var. Artıq konkret olaraq bir yerdə toplaşırıq, müzakirələrimizi edirik, uyğun addımlarımızı atırıq. Aprelin 27-də də toplantımız olacaq. Qərarlarımızın icrasına baxacağıq. Ənənəvi gündəliyimizdə olan məsələlərdən danışacağıq, ölkədəki ictimai-siyasi vəziyyətlə və cari məsələlərlə məşğul olacağıq. Keçən həftə çox gərgin müzakirələrimiz olub. Bir sıra müzakirələr zamanı fikir ayrılıqları da olub. Müzakirələri davam etdirəcəyik".

**AXP sədri Pənah Hüseyn isə qeyd edib ki, aprelin 28-də Antiböhran Koalisiyası Rusiya işğalı və Qarabağ problemi mövzusunda dəyirmi masa keçirəcək:** "Bu tədbirə hazırlıq işləri aparılır. Ayın 27-də Antiböhran Koalisiyasının toplantısında da elə bu məsələ müzakirə olunacaq. O cümlədən də əgər məqsədəuyğun sayılsa, həmin dəyirmi masaya bir layihə də çıxarılması nəzərdə tutulur. Bundan əlavə, hazırda son dövrdə Qarabağ cəbhəsində vəziyyətin gərginləşməsi ilə bağlı bəzi nəzərdə tutulan işlər dayandırılmışdı. O cümlədən ölkənin daxili vəziyyəti ilə bağlı məsələlərin də müzakirə edilməsi davam etdirilir. Başqa da cari işlər görülür".

**"AG blok"un təsisçilərindən Tural Abbaslı isə musavat.com-a bildirib ki, hər həftənin üçüncü günü koalisiyanın ənənəvi müzakirəsi baş tutur və burada bir çox məsələlrə müzakirəyə, geniş şəkildə təftişə çıxarılır:** "Növbəti müzakirələrimiz də davamlı olacaq. Gündəlik ictimai-siyasi məsələlər müzakirə olunur, atılacaq addımlar barədə qərarlar verilir. Aprelin 28-də Qarabağ mövzusu ilə bağlı dəyirmi masa təşkil olunacaq. Burada Rusiya faktorunun üzərində daha çox dayanılacaq. Yəqin ki, o tədbir lazımi effekti verəcək. Yaxın zamanlara planlaşdırılan əsas tədbir budur. Digər məsələlər də koalisiya iştirakçıları ilə müzakirə olunur".

Qeyd edək ki, bu il fevralın 3-də bir qrup aparıcı müxalifət partiya sədrləri və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Antiböhran Koalisiyası yaradılıb. Koalisiyaya Böyük Azərbaycan Partiyası (BAP), Klassik Xalq Cəbhəsi Partiyası (KXCP), Azadlıq Partiyası, Gələcək Azərbaycan Partiyası, Milli Konqres Partiyası (MKP), Azərbaycan Liberal Demokrat Partiyası (ALDP), Azərbaycan Xalq Partiyası (AXP), Aydınlar Partiyası, Ümid Partiyası, Dünyəvi Bozqurd Partiyası, Vətəndaş və İnkişaf Partiyası (VİP), "AG Blok", bir sıra hərəkat və təşkilatlar daxil olublar.

❑ **Röya RƏFİYEVA**

# Müsavatın Divan üzvü oğlunun partiya yaratmasından danışdı

## Başxanım Abbaslı: "O partiyaya ömrüm boyu xidmət etməyə hazıram"

**"AG blok"un lideri Tural Abbaslı may ayında tərəfdarları ilə birgə Müsavat Partiyasının sıralarını tərk edəcəklərini açıqlayıb. Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan T.Abbaslı bildirib ki, mayın 29-da qurultay keçirməyi düşünürlər: "Hazırda texniki işlərin həlli, qurultay nümayəndələrinin, yerin müəyyənləşdirilməsi məsələlərini həll edirik.**



Bu ağır prosesdir, qeyd etdiyimiz tarixə qədər çatdırıb-çatdırmayacağımız hələ bilinmir. Əgər plana uyğun olaraq, 29 may tarixinə qədər bütün işlərimizi çatdıra bilərsək, yəqin ki, may ayının ilk ongünlüyündə "Ağ Partiya"nın təşkilat komitəsinin üzvləri, yaxud da partiyaya qoşulacaq digər şəxslər də hansı partiyada təmsil olunurlarsa, istefa verəcəklər. O cümlədən də yəqin ki, Müsavat Partiyasından yollarımızı ayıracağıq. Burada şərt deyil ki, hamımız eyni gündə Müsavat Partiyasından istefa verək. Bizim "Müsavat parçalanır" deyə bir görüntü yaratmaq fikrimiz yoxdur. Sadəcə olaraq, bu, sırf prosedur qaydasıdır və qanunvericiliyin tələbidir. Biz Müsavat Partiyasında qurultaydan sonra yaranan mühitdə fəaliyyət göstərməyimizin mümkün olmadığını başa düşmüşük. Ona görə də özümüz üçün siyasi fəaliyyət platforması yaratmaq niyyətindəyik. Bu baxımdan da partiyadan ayrılmalıyıq. Burada sırf texniki yanaşma var".

**T.Abbaslı Müsavat Partiyasının üzvü olan qardaşlarının hansı partiyada qalacaqları məsələsinə isə bu cür aydınlıq gətirib:** "Onlarla hələ bu barədə danışmamışam. İstənilən halda onlar seçimlərində sərbəstdirlər. Yəni çalışıram ki, ailə münasibətlərimizi siyasi münasibətlərlə qarışdırmayım. Zatən, istər Azərbaycan iqtidarının, istərsə də qismən müxalifətin bu məsələdəki antidemokratikliyi siyasi səhnəni bugünkü ağır vəziyyətə salıb".

**Tural Abbaslının anası Başxanım Abbaslı Müsavat Partiyasının Divan üzvüdür. Bəs o, T. Abbaslının bu qərarını necə qarşılayır? B. Abbaslı da Müsavat Partiyasından istefa verib yaradılacaq olan partiyaya üzv olacaqmı?**

**Məsələ ilə bağlı "Yeni Müsavat" a danışan B. Abbaslı bildirib ki, hazırda Müsavat Partiyasının Divan üzvüdür:** "Tural Abbaslıdan çox əvvəldən Müsavat Partiyasının üzvüyəm. Partiyanın Birinci Bərpa Qurultayının nümayəndəsi olmuşam. Həmin qurultaya hazırlıqlarda fəal iştirak etmişəm. Mən hərəkatdan gəlmiş insanam. Müsavat Partiyası bir ideya partiyası olduğu üçün hər zaman orada olmuşam və orada da qalmaq fikrim var. Turala da uğurlar arzu edirəm. Əgər gənclər belə bir qərara gəliblərsə ki, yeni bir partiya, hərəkat yaratsınlar, bizə onlara uğurlar arzulamaq düşür. Tural Abbaslı ictimaiyyətdə tanınmış insandır. Öz fikirləri, düşüncələri var. Biz evdə ancaq ana-balayıq. Yəni siyasətçi kimi heç zaman söhbət etmirik. Tural da mənə heç zaman Müsavat Partiyasından gedim deyə təkid etmir. Hər halda, mən Müsavat Partiyasına heç kimin xahişi ilə üzv olmamışam və o partiyada da ölənə qədər üzv olaraq qalacağam. O partiyaya ömrüm boyu xidmət etməyə hazıram".

❑ **Əli RAİS**

# Dendrarimizin dərdləri



Zamin HACI
zaminhaci@gmail.com

**Bakıda sivilizasiyalar arası dialoq, irqçiliyə son qoyulması kimi mövzularda BMT səviyyəsində forum keçirildi. Maraqlı tədbirdir. Xüsusən də öz xalqı ilə dil tapmaqda çətinlik çəkən, müxalifəti, tənqidçi jurnalistikasını buldozerlə ayaqlayıb keçmiş bir iqtidarın belə tədbirə ev yiyəliyindən lovğalanması qəlbimizi riqqətə gətirir. "Sərhədsiz reportyorlar" qurumu təzəlikcə dünya söz azadlığı indeksini açıqladı, Azərbaycan orda qara rəngdə idi. Bu, söz azadlığının pozulmasında ən axırıncı həddin rəngidir. Nə deyə bilərik. Əliağa Vahid demişkən, biz kimik, məclis onun məclisidir... Elə tədbirin əsas qonağının nəinki Türkiyədə, artıq bütün dünyada jurnalist tutdurmağa girişmiş Ərdoğan olması hər şeyi deyir. Lap o ayrım lətifələrindəki ağsaqqal obrazı kimi bir durum yəni.**

"Yeni Müsavat"ın əməkdaşı Məhəmməd Türkmənin Bakıda oxuyan nigeriyalı tələbə qızla müsahibəsinin məhz bu forumla eyni vaxta düşməsi rəmzi oldu. Qız deyirdi ki, mənə Bakıda rəngimə görə lağ edirlər. Gərək o qızı foruma dəvət edəydilər, daha rəngarəng olardı. Türkiyədə vegetarian qurumun açılışı münasibəti ilə qoyun qurban kəsilməsini görmüş adamlarıq, bizi heç nə heyrətə gətirməz.

Mərdəkanda "Dendrari" adlı bir park var. Bu, 19-cu əsrin sonu, 20-ci əsrin əvvəlində yaşamış milyonçu Murtuza Muxtarovun bağında SSRİ vaxtı yaradılmış guya elmi obyektdir. Niyə "guya" yazıram, bu haqda az sonra. Yetərincə gözəl bağdır, içərisində Muxtarovun çox yaraşıqlı, gəmiyə bənzər bir binası da var. Ümumiyyətlə, hiss edilir Muxtarov çox zövqlü adam imiş. Bu zövq onun Bakıdakı məşhur binasından - indiki "Səadət sarayı"ndan da bilinir. Bakını bir vaxt belə adamlar tikirdi, indi kim "tikir" - özünüz nəticə çıxardın, mənim Kürdəxanıya getmək fikrim yoxdur, Mərdəkandan təzə gəlmişəm. Bağın ərazisində bir çox məşhur filmlər də çəkilib. Bunlardan ukraynalıların 1982-ci ildə çəkdiyi "Batterflyayın qayıtması" filmi var, məşhur ukraynalı opera müğənnisi Salome Kruşelnitskaya-nın həyatından bəhs edir. Mövzudan qırağa çıxmaq olmasın, mən bu filmdə qəribə paralel də gördüm: Salome xanım İtaliyada yaşayıb, SSRİ qurulanda geri qayıdıb. Muxtarovun xanımı Liza Tyuqanova isə ərinin bolşeviklərin əli ilə 1920-ci ildə qətlindən sonra gizli yolla xaricə qaçıb. Bəzi mənbələrə görə 1970-ci illərdə Almaniyada ölüb. Puççininin "Madam Batterflyay" əsərinin ən yaxşı ifaçılarından olmuş Salomeya xanım haqda filmin başqa nakam gözəlin bağında çəkilməsi yerinə düşüb.

Gələk bağın indiki durumuna. Dendrari 2014-cü ilə qədər AMEA Botanika İnstitutunun obyekti sayılıb, o vaxtdan bəri isə AMEA Dendrologiya İnstitutu adlı müstəqil qurumdur. 2 manat giriş pulu verib bağa girirsən, ancaq iki qəpiklik elmi bilgi ala bilmirsən. Bağ çox bərbad durumdadır, hər yeri dağılıb gedir. Son 16 ildə burda azı 3 dəfə olmuşam, durum ancaq pisə doğru gedir. Ağacların çoxu quruyub, qalanlar da baxımsızdır. Dendrari anlayışından xəbərsiz şəxslər bağa yiyəlik edir. Mən demirəm Britaniya Kral Nəbatat bağı kimi bir şey olsun, ancaq olanı qorumaq da çətin deyildi. Nadir ağaclar, başqa materiklərdən gətirilmə bitkilər ölüb, əvəzində isə... dovşan və göyərçin qəfəslərindən ibarət böyük sahə yaradılıb. Bilmirsən zooparkdır, yoxsa dendrari. Bağdakı tarixi quyu və Yeseninin ev muzeyinin açıq vaxtını hələ görmək qismət olmayıb. O cümlədən Muxtarovun tikdirdiyi çox gözəl, dairəvi hovuzun qapısı daim qıfıllıdır. Əgər Dendrologiya İnstitutu doğrudan elmi fəaliyyətlə məşğuldursa, o elmin kitab və broşürlərini turistlərə satmaq olmazmı? Direktorun bərbəzəkli otağını təmir etməkdənsə, tarixi quyunun pilləkənlərini düzəltmək olmazdımı? *(Bir işçi dedi, guya quyu pilləkənlər çürüdüyü üçün bağlanıb. Hovuzu da "içinə uşaq düşməsin" deyə bağlayıblar. Məncə, bağın direktoruna bağlı ayaqqabı geymək olmaz, özünü ağaclardan asa bilər).* Tragikomik detallardan biri də guya elmi obyekt olan bir ərazidə hər tərəfə dini hədislərdən şüarlar yazılmasıdır.

# Cəbhədəki son erməni təxribatları arxasındakı mümkün hədəflər

**Dağlıq Qarabağdakı təmas xəttində situasiya yenidən gərginləşib. Belə görünür, 4 günlük müharibədə ciddi zərbə alan işğalçı Ermənistan sülhə daha meylli olmaq əvəzinə, diplomatik prosesdən çıxmağa çalışır və hansısa hərbi revanş istəyi ilə alışıb-yanır. Bu isə yeni və daha genişmiqyaslı müharibə ehtimalını sövq-təbii artırır.**




# Rusiyanın Qarabağla bağlı 3 ssenarisi - Kremlin seçimi nə olacaq...

## Onların ikisi Azərbaycanın maraqlarına cavab verir, biri isə...; çox şey önümüzdəki həftələrdə Moskvanın verəcəyi qərardan asılı olacaq; **rusiyalı ekspert:** "Moskva seçim qarşısındadır və düşdüyü geosiyasi dalandan təcili çıxış yolu axtarır..."

Sözsüz ki, cəbhədəki son təxribatlar öncəliklə hakimiyyəti üçün daxildən təhlükə hiss edən Serj Sərkisyanın öz sifətini qismən bərpa eləmək, aprelin 5-dən sonra cəmiyyətə, orduya hakim kəskin ruh düşkünlüyünü aradan qaldırmaq niyyəti ilə bağlıdır. Bəzi müşahidəçilərə görə, təxribatçı hücumlar Bakıdakı BMT forumu ilə də ilgili ola bilərdi. Yəni düşmən bunun-la ali toplantıya etirazını ortaya qoymağa, onun əhəmiyyətini azaltmağa və hətta pozmağa səy edir.

Maraqlıdır ki, işğalçı ölkənin azğınlaşması xüsusən də Rusiya xarici işlər naziri Sergey Lavrovun İrəvan səfərindın dərhal sonra özünü büruzə verməyə başlayıb. Nazirin İrəvanda Sərkisyana nə dediyi, ondan nələr istədiyi dəqiq bəlli deyil. Ancaq fakt odur ki, Rusiyanın baş diplomatı geri qayıdan kimi, Sərkisyan "Bloomberg" agentliyinə müsahibəsində ölkəsinin danışıqlar prosesindən çıxdığını dilə gətirib, Rusiyanın vasitəçiliyini, onun Qarabağda sülhməramlı qüvvələr yerləşdirməsinin mümkünlüyünü şübhə altına alıb. Sonuncu məsələ isə Kreml üçün olduqca mühüm, hətta həlledici məsələdir.

Bəs nə baş verir, vassal Ermənistan həqiqətənmi öz sahibinin üzünə ağ olmağa başlayıb, yoxsa? İndi hamını düşündürən sual məhz budur. Şübhə yox ki, baş verəcək yeni eskalasiyalarda da yüzdə-yüz Rusiya amili mərkəzi təsirə malik olacaq. Məsələ də elə ondadır ki, görəsən, Kreml rəhbərliyində 4 günlük savaşdan sonra Qarabağla bağlı konkret hərəkət planı varmı? "Kazan formulu" gerçəkdənmi prezident Vladimir Putinin müşaviri, politoloq Sergey Markov demiş, stol üstündədir, yoxsa bizə məlum olmayan başqa planlar (A, B, C,) və ssenarilər də işlənib hazırlanıb?

***

**Yada salaq ki, az öncə Markov Lavrovun İrəvandakı Qarabağ danışıqlarını şərh edərkən konfliktin siyasi həlli yolunda əsas maneənin məhz İrəvanın ona sərfəli status-kvodan imtina etmək istəməməsi ilə bağlamışdı.** ""Kazan formulu" təkcə ona görə baş tutmayıb ki, sülh prosesinə müxtəlif baxışlar mövcuddur, həm də o səbəbə alınmayıb ki, Ermənistan, ümumiyyətlə, kompromislər üçün "əldən getməyib", buna həvəs göstərməyib. İrəvan, sadəcə, hər şeyin indiki kimi qalmasını istəyib. Ancaq son döyüş əməliyyatları həm Ermənistan, həm Rusiya, həm Fransa və ABŞ rəhbərliyinə, həm də digər beynəlxalq təşkilatların nümayəndələrinə təsir edib və göstərib ki, bu cür boş oturmaq sonsuz davam edə bilməz. Əgər cari danışıqlar da uğursuz olsa, növbəti eskalasiya qaçılmaz olacaq və o zaman yəqin ki, işğal altındakı müəyyən ərazilər Azərbaycanın nəzarətinə qayıdacaq", - deyə politoloq işğalçı tərəfə xəbərdarlıq eləmişdi.

Rusiyalı başqa tanınmış politoloq, tarixçi və siyasi analitik, tarix elmləri doktoru Oleq Kuznetsov isə yaranmış durumda Kremlin Qarabağla bağlı 3 mümkün ssenarisinin ola biləcəyini deyir:

**"Ssenari 1.** Rusiya Ermənistanda dövlət çevrilişini təmin edir. Nəticədə Sərkisyan-Köçəryanın "Qarabağ klanı" hakimiyyətdən uzaqlaşdırılır. Ardınca erməni cəmiyyətinin aktiv demokratikləşməsi və yeni siyasi rejimin qurulmasına şərait yaradır. Bu zaman təbii ki, işğal altındakı ərazilər Azərbaycanın yurisdiksiyasına qaytarılır. Rusiya Ermənistan total nəzarəti itirsə də, Azərbaycanla strateji tərəfdaşlığını saxlayır, Türkiyə ilə dostluq əlaqələrini bərpa edir, müsəlman dünyasında əvvəlki nüfuzunu geri qaytarır.

**Ssenari 2.** Moskva Trotskinin "Nə hərb, nə sülh" prinsipinə əsaslanmaqda davam edir və dəvəquşu siyasəti aparır. Bu zaman Bakı 2-5 apreldə olduğu kimi, vaxtaşırı lokal hücum əməliyyatları keçirmək üçün real imkanlar əldə edir və dəfədən-dəfəyə öz qoşunlarının döyüş bacarığını təkmilləşdirir. Hər belə döyüş toqquşması əvvəlcə təbliğati isteriyanın qızışması ilə müşayiət olunacaq. Ancaq insidentlərin sayı artdıqca dünya onlara öyrəşəcək və daha reaksiya verməyəcək. Bu da yekun etibarilə erməni silahlı qüvvələrinin Dağlıq Qarabağdan çıxarılmasına gətirəcək. Rusiya bu zaman Ermənistana təsirini bütünlüklə itirəcək, Türkiyə ilə əlaqələri bərpa etməyəcək, Mərkəzi Asiya ölkələrinə təsiri azalacaq və perspektivdə KTMT-nin dağılması ilə üzləşəcək.

**Ssenari 3.** Rusiya Dağlıq Qarabağda növbəti hərbi qarşıdurmanın kəskinləşməsi halında Ermənistan tərəfdə genişmiqyaslı müharibəyə cəlb olunur. Bu zaman düşmən qismində təkcə Azərbaycanı yox, Türkiyəni, Pakistanı, Orta Asiya ölkələrini qazanır, üstəlik, konsolidasiya olunmuş Qərb tərəfdən siyasi və iqtisadi istiqamətlər üzrə misli görünməmiş təzyiqlərə tuş gəlir. Vaşinqtondakı siyasi strateqlər məhz bu ssenariyə bel bağlayırlar. Bu ssenari nəticəsində Ermənistan dünya xəritəsində siyasi vahid olaraq öz mövcudluğunu dayandırır. Rusiya özünə qarşı islam dünyası qismində birləşmiş düşmən qazanır, Qafqaz və Orta Asiyada hər hansı təsirini itirir və yekun etibarilə dünya arenasında qlobal oyunçudan Fransa kimi nüvə silahına malik regional dövlətə çevrilir - qlobal siyasi məğlubiyyət isə yalnız zaman məsələsi olur".

Politoloq Kremlin ssenarilərdən hansına üstünlük verəcəyini söyləməkdə çətinlik çəkir. "Ancaq bir şeyə əminəm: 2-5 aprel döyüşlərindən sonra Güney Qafqazda situasiya kardinal şəkildə dəyişib və Kreml buna qətiyyən hazır olmayıb. Bu üzdən də onun hərəkətlərində təlaş və ürkəklik var. Mən əmindən də artıq əminəm ki, bu dəqiqə Rusiya XİN-i və Prezident Administrasiyası özləri özlərini saldıqları geosiyasi dalandan təcili çıxış yolu axtarır" - sonda ekspert əlavə edib.

***

Dağlıq Qarabağ ətrafındakı situasiyanın sadalanan ssenarilərdən hansı biri ilə inkişaf edəcəyini söyləmək həqiqətən də çətindir. Çox şey yəqin ki, önümüzdəki həftələrdə, Kremlin Qarabağla bağlı əsas istəyi üzə çıxandan sonra aydın olacaq. Bu yerdə onu da qeyd edək ki, Azərbaycan Ermənistandan fərqli olaraq Rusiya üçün etibarlı və qiymətli silah alıcısıdır və Kreml onu asanlıqla itirməz.

Təsadüfi deyil ki, 4 günlük müharibədən sonra Rusiya baş nazirinin müavini, hərb-sənaye sahəsini kurasiya edən Dmitri Roqozin məhz Bakıdan, bir növ qəzəbli erməniləri acığına bəyan elədi ki, Azərbaycana müasir silah satışı davam edəcək. Bakıdan gedəndən sonra isə verdiyi müsahibələrin birində bildirdi ki, Rusiya Azərbaycana silah satmaqdan imtina eləsə, boşluğu başqa ölkələr tutacaq ki, Moskva da bunu istəmir.

**Nəhayət, unutmayaq ki, qarşıda hərbi əməliyyatların aparılması üçün ən əlverişli yay mövsümü gəlir. Hərbi ekspertlərə görə, ta oktyabrın 1-dək bu mövsüm davam edəcək.**

❑ Siyasət şöbəsi

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT

N 91 (6411) 27 aprel 2016

# Qarabağ cəbhəsində gecə döyüşləri-düşmən itki verib geri çəkildi

## Ermənistan prezidenti məğlubiyyətə görə ordu generallarını qovdu; düşmən ölkə dörd günlük müharibədəki itkilərinə görə qisas almağa çalışır; **politoloq:** "Sərkisyanın əsəbi reaksiyalarından belə nəticəyə gəlmək olar ki, Rusiya 5 rayonu Azərbaycana qaytarması üçün Ermənistana təzyiq edir"



**Aprelin 25-dən 26-sına keçən gecə Qarabağ cəbhəsində vəziyyət növbəti dəfə gərginləşib. Belə ki, bir neçə saat ərzində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində yenidən fəal döyüş əməliyyatları müşahidə edilib. Azərbaycan Müdafiə Nazirliyi təmas xəttində Ermənistan işğalçı qüvvələrinin yaşayış məntəqələrimizi artilleriya zərbələrinə məruz qoyduğuna dair məlumat yayıb.**

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitinə uyğun olaraq düşmənin ancaq hərbi obyektlərinə adekvat cavab zərbələri endirib. Müdafiə Nazirliyi bildirir ki, bundan sonra cəbhə xəttində baş verəcək hər hansı hadisəyə görə məsuliyyəti Ermənistanın kriminal hərbi-siyasi rəhbərliyi daşıyacaq.

Azərbaycan Müdafiə Nazirliyinin rəsmi facebook səhifəsində bildirilib ki, ermənilər Tərtər şəhərini minaatanlardan və iri çaplı silahlardan atəşə tutub. Nəticədə ölən və yaralanan olmasa da, rayon ərazisində yaşayış evlərinə ziyan dəyib. Erməni tərəf iki hərbçinin məhv edildiyini təsdiqləyib.

Tərtər Rayon İcra Hakimiyyətinin (RİH) başçısı Müstəqim Məmmədov report.az-a deyib ki, baş verən hadisələr zamanı Tərtər rayonu üzrə 23 yaşayış evinə və 1 inzibati binaya mərmi düşüb. İcra başçısı bildirib ki, ermənilərin atdığı "Qrad" mərmisindən biri Şuşa Rayon Polis Şöbəsinin inzibati binasının yaxınlığında partlayıb və binaya ciddi ziyan dəyib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Tərtər rayonunda olub, sakinlərlə görüşüb, ziyan dəymiş evlərə baxıb. Nazir "Azərbaycan ordusu ermənilərin təxribatlarına cavab olaraq növbəti dəfə düşmənə sarsıdıcı zərbə endirib. Düşmənin mövqeyində yerləşən postlar dağıdılıb" deyib.

***

Qeyd edək ki, aprelin 25-də düşmən Ağdərə istiqamətində tankları döyüş mövqeyinə çıxararaq, mövqelərimizə həmlə etməyə cəhd göstərmişdi və cavabını alandan sonra geri çəkilməyə vadar olmuşdu. Həmin döyüşdə erməni tərəf heyət üzvləri ilə birlikdə bir tank itirmişdi. Azərbaycan ordusunun cavab zərbələri düşməni vahiməyə salıb. "Gecə saatlarında başlayan şiddətli döyüşlərdən sonra Ağdərədə vəziyyət gərginləşib. İndiki atışma dördgünlük müharibədən daha güclü idi". Bunu işğal olunmuş Ağdərə rayonunun "kənd icmasının rəhbəri" Sasun Harutyunyan söyləyib.

Aprel məğlubiyyətindən və son bir neçə gündə aldığı zərbələrdən sonra Ermənistan prezidenti Serj Sərkisyan Müdafiə Nazirliyinin rəhbərliyini cəzalandırmağa qərar verib. Sərkisyanın fərmanı ilə müdafiə nazirinin maddi-texniki təchizat üzrə müavini Alik Mirzəbekyan, Baş Qərargahın kəşfiyyat idarəsinin rəisi general-mayor Arşak Karapetyan, rabitə qoşunlarının və avtomatik idarəetmə sistemlərinin rəisi, general-mayor Komitas Muradyan işdən azad ediliblər. Bu cəza tədbirlərinin Qarabağda aprelin əvvəllərində gedən döyüş əməliyyatları zamanı Ermənistan ordusunun aldığı ağır zərbə ilə bağlı olduğuna heç bir şübhə yoxdur. Qeyd edək ki, bugünlərdə Ermənistan parlamentində qarşılıqlı ittihamlarla müşahidə olunan gərgin müzakirələr gedir və müdafiə nazirinin parlamentə hesabat verməsi istənilir. Son məğlubiyyət erməniləri ciddi şəkildə üz-üzə qoyub.

***

**Politoloq Elxan Şahinoğlu hesab edir ki, cəbhə bölgəsində vəziyyətin yenidən gərginləşməsinin iki səbəbi var:** "Birinci səbəbi odur ki, 2-6 aprel döyüşlərindən sonra beynəlxalq aləm danışıqları intensivləşdirməyib, rusiyalı rəsmilər isə şablon ifadə və səfərlərdən uzağa getməyiblər. Belə olan halda kimsə cəbhə bölgəsində sakitlik gözləməsin. İkinci səbəb isə odur ki, Ermənistan prezidenti itirdiyi yüksəklikləri geri qaytarmaq haqqında düşünür, çünki hələ də "Ermənistan həmin yüksəklikləri niyə itirdi" sualına cavab verməyib, ona görə də bu sual aktuallaşmamış nəsə cəbhədə uğur qazanmaq haqqında alışıb-yanır. Əslində hər iki səbəb bizim xeyrimizə işləyir. İşğalçının təxribatlarına yeni ərazilərin azad edilməsi ilə cavab vermək imkanı qazanırıq".

Ermənistan mənbələri Sərsəng Su Anbarını qorumağa xüsusi təyinatlıların, həmçinin Qarabağa hərbi texnika və qurğuların, o cümlədən "könüllü" adlandırdıqları muzdluların daşındığını açıqlayır, bununla bağlı kadrları tirajlayıb. Həmçinin Dağlıq Qarabağ separatçılarının lideri Bako Saakyanın Hadrut, Xocavənd və Ağdərədəki son görüşləri, Serj Sərkisyanın xarici mətbuata müsahibəsində dedikləri İrəvanın danışıqlar yox, savaş yolunu seçdiyinə şübhə yeri qoymayıb. Özü də cəbhədəki təxribat-diversiya hərəkətləri Rusiya XİN başçısı Sergey Lavrovun İrəvan səfərindən sonraya təsadüf edir. Qeyd edək ki, XİN-in sözçüsü Mariya Zaxarova "Sergey Lavrov heç vaxt harasa əliboş yollanmır" desə də, sonradan Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyan "Lavrov Ermənistana hər hansı bir paket gətirmədi, nə də qarşılıqlı güzəşt məsələsi müzakirə olunmayıb" deməklə Moskvanı təkzib etdi. Eyni zamanda S.Sərkisyan da hansısa planın müzakirə olunmadığını, hətta danışıqlar üçün şəraitin mövcud olmadığını dedi. Ancaq Rusiyanın "İzvestiya" qəzetinin "Lavrovla Sərkisyan arasında görüş çox gərgin keçib" yazması da diqqət çəkir. Rusiya ilə Ermənistan arasında soyuq münasibətlərin olduğunu iddia edənlərlə yanaşı, əksini düşünənlər də var. Hesab olunur ki, vəziyyət göründüyü kimi deyil və əslində Moskva İrəvanla münasibətlərində gərginliyin olduğu görüntüsünü yaratmaqla münaqişənin həllində tərəf tutumadığı rəyini aşılamaq, son nəticədə "sülhməramlı" adı altında hərbçilərini Qarabağa yeritmək istəyir.

Ermənistanın "Qraparak" qəzeti iddia edib ki, guya aprelin 1-dən 2-nə keçən gecə Qarabağda döyüşlər başlayanda Rusiya hərbi rəhbərliyi erməni tərəfi ilə telefon əlaqəsi saxlamağa cəhd edib, ancaq dəstəyi götürən olmayıb. Hansı ki, Sərkisyan atəşin dayandırılması üçün yalvarmaq həddinə çatmışdı.

Fakt budur ki, Ermənistan rus əsgərinə arxalanmasa, Azərbaycanın mövqelərinə doğru bircə addım və ya güllə atmaz. Sərkisyan ordusunun zəif olduğunu Almaniyada şəxsən etiraf etmişdi. Belə görünür, Azərbaycanı tələyə salmaq üçün Moskva və İrəvan "soyuq müharibə" oyunu qurub.

**Politoloq Şahin Cəfərli isə Sərkisyanın "Bloomberg"ə son müsahibəsində dediklərinin bir az yanlış yozulduğu qənaətindədir:** "Sərkisyan Ermənistanın danışıqlar prosesini tərk etdiyini söyləməyib. Belə bir bəyanat faktiki olaraq, Ermənistanın müharibə yolunu seçdiyi mənasına gələr və siyasi-diplomatik baxımdan işğalçı ölkəyə zərər verər, onun beynəlxalq aləmdə təklənməsinə gətirib çıxarar. Sərkisyanın bu cür bəyanatla çıxış etməsinin iki əsas səbəbi var: əvvəla, o, sərt mövqe nümayiş etdirməklə, danışıqlar prosesində əlverişli mövqe qazanmağa çalışır və hazırda özünə yönələn beynəlxalq təzyiqləri Azərbaycana doğru yönəltməyə cəhd göstərir. Yəni Sərkisyan vasitəçiləri bir növ şantaj edir ki, onlar erməni tərəfinin masadan qalxa biləcəyindən narahat olaraq 5 rayon məsələsi ilə bağlı İrəvana basqılardan vaz keçsinlər. Cəbhədəki son ərginlik və Sərkisyanın "müha - ribə yenidən başlaya bilər" xəbərdarlığı da buna xidmət edir. İkinci səbəb isə təmas xəttində yaranmış vəziyyətlə bağlıdır. Azərbaycan Silahlı Qüvvələrini lokal əks-zərbə imkanlarından məhrum edəcək mexanizmin qurulması gündəmdədir. Rusiya və digər həmsədr ölkələrin bəhs etdiyi "insidentlərin araşdırılması mexanizmi" məhz bunu nəzərdə tutur. Hazırkı şəraitdə belə bir mexanizmin yaradılmasının Azərbaycan üçün sərfəli olmadığını daha öncə söyləmişdik. Çünki bu mexanizm, yuxarıda qeyd etdiyim kimi, Azərbaycan ordusunu işğalçıya yeri gəldikcə, effektli zərbə vurmaq imkanından məhrum edə bilər. Azərbaycan Silahlı Qüvvələri son aylarda, xüsusən Zakir Həsənovun nazir təyin olunmasından sonra bu taktikadan istifadə etməyə başlayıb. Məsələn, işğalçı tərəf 1 güllə atırsa, ona 2 gülə ilə cavab verilir. Bu taktika təmas xəttində işğalçını daim gərginlikdə saxlayan, onu yoran və enerjisini tükəndirən uğurlu bir taktikadır. Sözügedən mexanizmin qurulması isə daha çox işğalçını qoruyacaq, ona rahatlıq gətirəcək. Bu, bizə sərf etməyən variantdır". **Münaqişənin həlli prosesində yaranmış vəziyyətə gəldikdə isə Ş.Cəfərli qeyd etdi ki, əslində paradoksal bir durum yaranıb:** "Sülh danışıqlarının kimin xeyrinə cərəyan etdiyi barədə birmənalı fikir söyləmək çətindir. Bu haqda sosial şəbəkədəki statusumda da qısaca yazmışam. Danışıqların gedişi barədə məlumat verilməsə də, yayılan xəbərlərdən, Sərkisyanın əsəbi reaksiyalarından belə nəticəyə gəlmək olar ki, Rusiya hazırda Dağlıq Qarabağ ətrafındakı 5 rayonu Azərbaycana qaytarması üçün Ermənistana təzyiq edir. Serj Sərkisyan isə daxildə etirazların başlayacağından və sonda hakimiyyətini itirəcəyindən qorxaraq buna müqavimət göstərir. Məntiqlə, Sərkisyanın müqavimət göstərdiyi məsələ bizim xeyrimizə olmalıdır, lakin bu cür fikir söyləmək bir az bəsit yanaşma olardı. Çünki rayonların qeyd-şərtsiz qaytarılmasından söhbət getmir. Rayonların qaytarılmasının əvəzində Azərbaycandan hansısa güzəştlər və ya siyasi addımlar tələb olunduğunu təxmin etmək olar. Azərbaycan daha əvvəl bu tip şərtli təklifləri qəbul etməyib. Yəni 5 rayonun əvəzində Dağlıq Qarabağın hüquqi baxımdan da Azərbaycandan ayrılmasına yol açacaq təkliflərə razı olmayıb, eləcə də Rusiyanın inteqrasiya layihələrində iştiraka razılaşaraq ölkəmizin müstəqilliyini məhdudlaşdıracaq addımlara getməyib". **Belə bir sual yarana bilər ki, əgər ortada Azərbaycanın maraqlarına cavab verən bir sülh təklifi, yaxud planı yoxdursa, bəs Sərkisyan rejimi və bütövlükdə erməni cəmiyyəti niyə narahat görünür? ŞCəfərli:** "Məsələ burasındadır ki, tərəflər arfasında razılıq əldə edilərsə, Azərbaycandan fərqli olaraq, erməni tərəfinin güzəştləri gözlə görünən olacaq. Yəni Azərbaycan tutaq ki, masada, kağız üzərində güzəştə gedəcəksə, Ermənistan masadakı anlaşmadan sonra konkret addımlar da ataraq öz ordusunu, hərbi texnikasını böyük ərazilərdən çıxarmalı olacaq. Masadakı sülh planının siyasi detalları hətta ermənilərin xeyrinə olsa belə, bunu erməni cəmiyyətinə izah etmək, sıravi erməniləri başa salmaq və rayonların boşaldılmasını əsaslandırmaq Sərkisyan üçün çox çətin olacaq və onun siyasi rəqibləri də bundan yararlanacaq. Sərkisyan indi şahmatdakı "suqsvanq" vəziyyətinə bənzər bir durumdadır. İstənilən gediş onun vəziyyətini çətinləşdirəcək. Azərbaycanın mövqeyinə gəldikdə isə bir daha təkrarlamaq istəyirəm ki, rəsmi Bakı 5 rayonun hər hansı şərt olmadan boşaldılmasında israr etməlidir. Bizim tərəfdən güzəştlər sonrakı mərhələlərdə - Laçın və Kəlbəcərin geri qaytarılması və Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi məsələlərində ola bilər".

***

Son təxribatların Bakıda keçirilən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna təsadüf etməsi də diqqət çəkir. Azərbaycan prezidenti İlham Əliyev açılış mərasimindəki çıxışında diqqəti Ermənistanın işğalçılığına yönəldib. "Münaqişənin həlli ərazi bütövlüyünə, Helsinki Yekun Aktına əsaslanmalıdır"-deyən dövlət başçısı Azərbaycan ərazilərinin işğaldan azad olunacağını bir daha bəyan edib.

***

**Bu arada Fransanın prosesə qoşulması da maraq doğurur. Bu barədə Fransanın Avropa məsələləri üzrə dövlət naziri Arlem Dezir İrəvanda keçirdiyi mətbuat konfransında deyib.** "Mən Fransa hökumətinin və prezidentinin tapşırığı ilə burdayam və özümlə barış, danışıqların bərpa olunması mesajını gətirmişəm. Vəziyyət çox gərgin və partlayış həddindədir, ona görə də Fransanın siyasi rəhbərliyi gərginliyi azaltmağa çağırır", dövlət katibi əlavə edib. O, Bakıda siyasi rəhbərliklə keçirəcəyi görüşlərdə da məsələnin müzakirə olunacağını deyib. Beləliklə, Rusiya və Almaniyadan sonra Fransa da hərəkətə keçdi. Ancaq cəbhədə silahlar susmur...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 90 (6411) 27 aprel 2016



## Həccdə qanunları pozan azərbaycanlılar edam edilə bilər

**Səudiyyə Ərəbistanı bu il Azərbaycandan Həcc ziyarətinə gedəcək zəvvarlara xəbərdarlıq edib. Xəbərdarlıqda bildirilib ki, qaydaları pozanlar ölüm hökmünə də məhkum oluna bilər.**

Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) APA-ya verilən məlumata görə, zəvvarlarla imzalanan müqavilənin xüsusi müddəa bölümünün 4.7-ci bəndində qeyd olunub ki, narkotik vasitələrin, spirtli içkilərin və təbliğat xarakterli ədəbiyyatların Səudiyyə Ərəbistanına gətirilməsi qəti qadağandır. Ölkəyə narkotik aparanlar ölüm hökmü (edam) cəzasına məhkum edilir.

Bölümün 4.8-ci bəndində isə deyilir ki, buna görə təşkilatçı (QMİ) məsuliyyət daşımır.

Qeyd edək ki, aprelin 1-dən Azərbaycanda Həcc ziyarətinə sənəd qəbulu başlayıb. Bu il Azərbaycandan gedəcək zəvvarlar üçün say limiti ötən ilkindən az - 1500 nəfər müəyyənləşib. Ziyarət zamanı daha yaxşı şəraitli hotellərdə qalmaq, bahalı yeməklərlə təmin olunmaq, o cümlədən hotellərdə 4 nəfərlik otaqlarda yerləşmək 4500 dollar, nisbətən ucuz şəraitli, 6 nəfərlik otaqlarda qalmaq isə 3500 dollardır.

Dolların kursuna görə builki ziyarət xərcləri ötən illə müqayisədə bahadır. Ötən il Azərbaycandan Həcc ziyarətinə 2400 zəvvar gedib, onlardan 3-ü Məkkədə dünyasını dəyişib və orada dəfn olunub. Ötən il həm də Həcc ziyarəti kütləvi insan ölümü ilə nəticələnən hadisələrin baş verməsi ilə də yadda qalıb. Azərbaycanda Həcc ziyarətinə sənəd qəbulunu yalnız QMİ aparır.

## Zaqatalada vəhhabilərə qarşı xüsusi əməliyyat

**Zaqatala rayonunda radikal dini təriqət üzvlərinə qarşı əməliyyat keçirilib. Hüquq-mühafizə orqanlarından APA-ya verilən məlumata görə, Zaqatala Rayon Polis Şöbəsinə rayonun Yuxarı Tala kəndi ərazisində yerləşən hücrədə Vəhhabi təriqət üzvlərinin toplantı keçirməsi barədə məlumat daxil olub.**

Daxil olan məlumat əsasında həmin ünvanda əməliyyat keçirilib. Əməliyyat zamanı polisə müqavimət göstərən 5 nəfər saxlanılıb.

Hücrədən həmçinin çoxlu sayda dini ədəbiyyat, audio və video materiallar götürülüb.

## Suriyada döyüşənlərin daha bir məhkəməsi oldu

**Bakı Apelyasiya Məhkəməsində Suriyada qanunsuz silahlı birləşmələrdə döyüşməkdə təqsirləndirilən Bəxtiyar İmriz oğlu Şahbazi, Bəhruz Bəxtiyar oğlu Şahbazi və Sadiq Yadigar oğlu Məhəmmədzadə barələrində olan hökmdən verilmiş apelyasiya şikayəti üzrə məhkəmə başa çatıb.**

"Report"un məlumatına görə, hakim Vaqif Mursaqulovun sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub. Qərara əsasən, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü dəyişdirilmədən saxlanılıb. Təqsirləndirilən şəxslərin apelyasiya şikayətləri təmin edilməyib.

Qeyd edək ki, keçən ilin yanvar ayında hazırda ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi (MTN) tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Bəxtiyar Şahbazi və onun 1985-ci il təvəllüdlü Bəhruz Şahbazi, həmçinin Sadiq Məhəmmədzadə saxlanılıb. Müəyyən edilib ki, həmin şəxslər 2014-cü ildə qeyri-qanuni yolla Suriya Ərəb Respublikasının ərazisinə gedərək, orada həmin ölkənin və Azərbaycan Respublikasının qanunvericilikləri ilə nəzərdə tutulmayan qanunsuz silahlı birləşmələrin tərkibində radikal dini və hərbi təlimlər keçmiş, müxtəlif növ odlu silahdan isitfadə qaydalarını öyrəniblər. Təlimlərdən sonra onlar Suriya Ərəb Respublikasının ərazisində həmin dövlətin və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin fəaliyyətlərində iştirak ediblər.

Avqust ayının 26-da Bakı Ağır Cinayətlər Məhkəməsində Şahbazi Bəxtiyar 14 il, Şahbazi Bəhruz 12 il və Məhəmmədzadə Sadiq 14 il müddətinə azadlıqdan məhrum edilib. Hökmdən narazı qalan məhkumlar apelyasiya şikayəti veriblər.

# "Qanuni oğru"ların Rusiyadakı savaşı Bakıya sıçradı

## "Lənkəranski" ilə 18 ildir həbsdə olan "Quli" arasında münaqişə "Bulaq"dan başlamayıb, amma...

**Aprelin 25-də axşam saatlarından başlayaraq, Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi (BMCMİ) paytaxt polisinin ərazi bölmələri ilə birgə Bakının əksər rayonlarında cinayət aləmi ilə əlaqələri olduğu iddia edilən şəxslərə qarşı irimiqyaslı əməliyyat keçirərək, 50-dən çox adamı həbs edib, xeyli miqdarda odlu silah və partladıcı maddə ələ keçiriblər.**




### "Bulaq" da nə baş verib?

Məlumata görə, DİN-in müvafiq strukturlarının paytaxtda belə qəfil irimiqyaslı əməliyyat keçirməsinə səbəb bir neçə gün əvvəl - aprelin 21-də Səbayel rayonu, Badamdar qəsəbəsi ərazisində yerləşən "Bulaq" restoranında baş vermiş atışmadan sonra iki cinayətkar qruplaşma - "Lotu Quli" ilə "Lənkəranski" tərəfdarları arasında gərginləşən münasibətlər olub.

Bildirilir ki, polis "Bulaq" restoranındakı atışmanın səbəblərini araşdırarkən, bunun "Quli" ilə "Lənkəranski" tərəfdarları arasında növbəti "kriminal razborka" olduğunu müəyyənləşdirib, daha sonra isə əməliyyat-istintaq yolu ilə hər iki qruplaşmanın paytaxtdakı əlaqələrini, əhatə çevrəsini, toplanış məntəqələrini, eləcə də yaxın gələcək üçün planlarını öyrənə bilib...

Elə bu məlumatlar əsasında da aprelin 25-dən axşam saatlarından başlayaraq, paytaxtın bir neçə rayonunun ərazisində əvvəlcədən müəyyənləşdirilmiş ünvanlarda qəfil əməliyyat tədbirləri həyata keçirilərək, 50-dən yuxarı şəxs həbs edilib.

Hazırda əməliyyat-istintaq tədbirlərinin davam etdirildiyi, həbs olunanların çevrəsinin genişlənəcəyi və hər iki qruplaşma ilə cinayət əlaqəsi olan daha bir neçə şəxsin də saxlanılacağı gözlənilir. Bildirildiyinə görə, saxlanılan şəxslərin bəziləri uzun müddətdir ki, Bakıda "cinayət aləminin təmsilçisi" kimi müxtəlif iş adamlarından, obyektlərdən xərac toplayırmışlar.

Qeyd edək ki, hadisə zamanı Fuad Əkbərov və Bəhruz Rəfiyev tapançadan açılan atəş nəticəsində yaralanıb, 30 yaşlı Süleyman Abdullayev isə bıçaqlanıb. Hər iki yaralı Bakıdakı özəl xəstəxanalardan birinə yerləşdirilib. Polis və prokurorluq orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində paytaxt sakinləri Tofiq Qaramizadə, Hüseyn Hüseynov və B.Rəfiyev tutulub. Faktla bağlı Bakı Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 29,120-ci (qəsdən adam öldürməyə cəhd) və 221.2.1-ci (xuliqanlıq, bir qrup şəxs tərəfindən və ya təkrar törədildikdə) maddələri ilə cinayət işi başlanıb, istintaq davam etdirilir.

Saytın iddialarının nə qədər doğru olduğunu demək çətindir. Çünki hələ ki hüquq-mühafizə orqanları hadisənin başvermə səbəbləri barədə rəsmi xəbər yaymayıblar. Amma bu atışmadan sonra həbslərin miqyasının böyüməsi bu versiyanın həqiqət yükünü artırır. Üstəlik, heç kimə sirr deyil ki, iki "qanuni oğru" arasında illərdir ki, münaqişə davam edir, bu da həm həbsxanada, həm də azadlıqda tez-tez qanlı "razborka"lara səbəb olur.

### Bayıl həbsxanasından başlayan münaqişə

Nadir Səlifov ("Quli") 1972-ci il avqust ayının 28-də Gürcüstanın Dmanisi rayonunda doğulub. "Quli" gürcü dilində "ürək" deməkdi. Kriminal aləm ona bu ləqəbi ürəkli olduğuna görə verib. "Quli" Marneulidə doğulan azərbaycanlı Otari Bədəlovla ("Otar") yaxın dost olub.

"Otar"ın 2003-cü il martın 21-də Moskvadakı "Suşi" barda naməlum şəxslər tərəfindən güllələnməsindən sonra "Lənkəranski"yə "oğru" adı verən "Nardaranlı Mirseymur" da qətlə yetirilir ki, bunu da indiyədək "Quli"nin qisas cavabı hesab edənlər var. İllərdir bu qarşılıqlı qətllər davam edir. "Quli" 18 ildir ki, Bakıda həbsxanada cəza çəkir. 11 ildir ki, 8 saylı xüsusi rejimli cəzaçəkmə müəssisəsində "odinoçka" - yəni təkadamlıq kamerada saxlanılır. Bu cəzaçəkmə müəssisəsi təkrar cinayət törədən şəxslər - residivistlər üçün nəzərdə tutulub. Amma fakt odur ki, "Quli" residivist deyil.

Onu Azərbaycanın ən titullu "qanuni oğru"su kimi qəbul edənlər də var, onun titulunu tanımayanlar da. Məlumatlara görə, "Quli" ilə Azərbaycanın ən titullu "oğrular"ı arasında problem illər öncə indi tarix olan Bayıl təcridxanasında baş vermiş bir hadisədən başlayıb. Belə ki, "Quli" oğru etiketlərinə zidd olaraq "böyük qardaş"- "Sabirabadlı Hikmət" kimi tanınan Hikmət Muxtarova əl qaldırıb.

İllərdir ki, "Quli"ni "oğru" hesab etməyənlər məhz onun "böyük qardaşa" əl qaldırmasını bağışlamırlar. 2009-cu ildə Hikmətin qətlini də "Quli"nin sifarişi hesab edənlər var. "Quli"ni "oğru" hesab etməyənlər bir neçə il əvvəl, hələ "Sabirabadlı Hikmət" sağlığında Moskvada 9 "oğru"nun toplaşdığı "sxodka"da qəbul edilən qərarı əsas gətirirlər. Həmin qərar "Quli"dən "oğru" adının alınması barədə olub. Bu şifahi qərar yazılı formada Azərbaycanın əksər "zon"larına paylanılıb. Bundan sonra kriminal aləmdə azərbaycanlılar arasında parçalanma dərinləşib, tərəflər çoxsaylı itkilər verib ki, öldürülənlər sırasında bir çox "qanuni oğru"lar *("Sabirabadlı Hikmət", "Otar", "Nardaranlı Mirseymur", "Ağbaş Çingiz" və sair...)* da olub.

"Quli" və tərəfdarları təbii ki, indi də qüvvəsini itirməyən bu qərarı qəbul etmir və onların da öz arqumentləri var. Çünki kriminal aləmdə bu cür mühüm məsələnin müzakirəsində ittiham edilən tərəf, yəni "Quli"nin də iştirak etməsi və "oğru" adının hansı səbəbdən ondan alınması izah olunmalı və özünü müdafiə etməyə şərait yaradılmalı idi.

Daha bir maraqlı fakt. Son günlər Rusiyada "Lənkəranski" tərəfdarlarından həbs edilənlərlə bağlı xəbərlər də artıb. Belə ki, bir neçə gün əvvəl Rusiyanın Yekaterinburq şəhərində keçirilən əməliyyat zamanı Mail Əliyev adlı azərbaycanlı saxlanılıb. Rusiya televiziyaları M. Əliyevin üzərindən 4,5 milyon rubl *(təxminən 105 min manat)* pul götürüldüyünü və bu pulların "Lənkəranski" tərəfdarlarına məxsus olmasını iddia edib. Hətta televiziyalarda saxlanılan şəxsə aid olduğu deyilən cib dəftərçəsində "Rövşən Lənkəranski"nin adı və telefon nömrəsi görüntülənib.

**Rusiyada cinayət aləminə qarşı əməliyyatların indi Bakıda da başlaması təsadüfdürmü?**

**❑ "Yeni Müsavat"**

**ABŞ Avropaya ilk qazını göndərib. Mayeləşdirilmiş qazı daşıyan tanker ABŞ-ın Luiziana ştatından Portuqaliyaya doğru hərəkətə başlayıb. Mütəxəssislər hesab edir ki, bu hadisə uzun zamandır Rusiyanın hegemonluq etdiyi Avropa qaz bazarında ciddi rəqabətə səbəb olacaq. ABŞ qazı daha ucuz olduğundan Avropa bazarının rus qazından imtina edəcəyi və ya Rusiyanın öz təbii sərvətini daha ucuz satmaq məcburiyyətində qalacağı bildirilir.**

# ABŞ Kremli həm də sıxılmış qazla sıxır

## **İlham Şaban:** "Hələ ki Avropaya ixrac olunan Amerika sıxılmış qazı Rusiya qazı ilə rəqabət gücündə deyil"

Proqnozlara görə, bir neçə il sonra dünya qaz ehtiyacının 80%-i ABŞ və Avstraliya tərəfindən təmin ediləcək. Bu durumda Azərbaycanın qaz strategiyası da ciddi problemlə üzləşə bilər.

Hazırda Avropa qaz məsələsində Rusiyadan asılıdır və bu baxımdan enerji təhlükəsizliyi sual altındadır. Avropanın beynəlxalq siyasətdə də Rusiyaya qarşı sərt mövqe sərgiləyə bilməməsinin səbəblərindən biri də məhz enerji məsələsidir. ABŞ qazı Avropanı Rusiyanın enerji asılılığından xilas etməklə yanaşı, bu ölkənin nüfuzunu da zəiflədəcək. Avropanın alternativ qaz mənbələrindən biri də Azərbaycanın qaz layihəsi olan TANAP-dır. ABŞ Azərbaycanla yanaşı, Qətər, Suriya və İran qazının da Avropaya axınını təmin etmək üçün "Cənub Qaz Dəhlizi" projesinin reallaşdırılmasında maraqlı olduğunu dəfələrlə etiraf edib.



ABŞ qarşıdakı illərdə qaz ixracını artırarsa və Avropa rus qazından imtina edərsə, Moskva həm dünya siyasətindəki rolunu, həm də ildə milyardlarla dollar pulunu itirə bilər. Qeyd edək ki, bu ölkə hər il Avropaya ixrac etdiyi qazdan 200 milyard dollar qazanır.

**Məsələni şərh edən Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban isə Yeni Müsavat"a açıqlamasında bildirdi ki, hələ ki Avropaya ixrac olunan Amerika sıxılmış qazı Rusiya qazı ilə rəqabət gücündə deyil:** "Bu il və gələn il üçün Amerika qazı bazarda elə də böyük rəqib olmayacaq. Ancaq bu bazara ilkin olaraq psixoloji təsir göstərəcək. Bu, Avropanın qaz bazarının diversfikasiya edilməsində, daha da şaxələndirilməsində yeni bir mənbədir. Bu da qazın qiymətlərinə müəyyən dərəcədə təsir edən bir amildir. Ancaq ixrac həcmlərinin gələcəkdə müəyyən qədər artırılması, bazarda qaz qıtlığı yarandığı bir şəraitdə idxalçı ölkələri Rusiya və digər monopolist ölkələrin asılılığından müəyyən qədər sığortalamaq cəhdidir. Söhbət təkcə ABŞ-dan getmir. Avropaya yeni mənbələrdən qazın gəlməsi, Azərbaycan qazının yaxın 4 ildən sonra Avropa bazarına ayaq açması Avropanın enerji təhlükəsizliyinin artırılması istiqamətində bir addım olacaq. Bu o demək deyil ki, bizim qaz Rusiya qazı ilə rəqabətə davamlı olacaq. Rusiya hazırda Avropaya 160 milyard kubmetr qaz ixrac edir. Ancaq qiymət baxımından, həmçinin enerji təhlükəsizliyi baxımından xüsusi rola malik olan bir addımdır. Buna görə də qeyd edirlər ki, qazın qiyməti yaxın illər ərzində artan xətlə inkişaf etməyəcək".

**Ekspert Avropa bazarındakı yeni təkliflərin qazın qiymətinin ucuzlaşmasına da təsir edəcəyini istisna etmədi:** "Söhbət ondan getmir ki, Amerikanın Avropanın bazarına qaz çıxartması Avropa bazarında qiymətləri çökdürəcək. Amerika qazının həcmi elə bir gücə malik deyil. Əsas məsələ odur ki, bazarda təklif artsın və qiymətlər ucuzlaşsın. Sıxılmış qaz dünya bazarında iki istiqamətdə bölünür. Bir hissəsi neft istehsalında istifadə olunur, digər hissəsi isə birjalarda auksionlarla satılır. Yəni qiymətlər auksionda müəyyənləşir. Bizim üçün bazara qazı kimin çıxartmasının fərqi yoxdur. Əsas məsələ odur ki, enerjiyə tələbat olacaqsa, qazın qiyməti qalxacaq. Proqnozlara görə, 2025-ci ildən sonra enerjiyə olan tələbat yüksələcək. Bu yüksəlmə isə enerji istehsalçısı və ixracatçısı olan Azərbaycan üçün əlverişlidir. Çünki biz layihələrimizi uzunmüddətli dövr üçün hesablamışıq. Bu layihələrin rentabelliyi perspektiv üçün normaldır".

**İlham Şaban bildirdi ki, istənilən enerji layihəsi planlaşdırılarkən, onun rentabelliyi məhsulun bir neçə illik orta qiyməti ilə ölçülür:** "Bu gün qazın qiyməti 200 dollardan aşağı düşübsə, o layihələri dondurmaq, o layihələrin gələcəyini görməmək doğru deyil. Biz 1997-98-ci illərdə neftin qiyməti 10 dollar olduğu vaxtda "Azəri-Çıraq-Günəşli" layihəsini işləməzdik. Oturub 2005-ci ilə kimi gözləyərdik ki, nə vaxt neftin qiyməti qalxar, o zaman işləməyə başlarıq. Enerji layihələri dəyişkən qiymətlərə hesablanır, qiymətlər 3 il düşür, sonrakı 3 ildə qalxır. Layihələr isə orta qiymətlərə hesablanır.

"Azəri-Çıraq-Günəşli" yatağı işə başlayandan bu günə qədər neftin orta qiyməti 75 dollar olub. Yəni birinci il neft 10 dollar olub, elə il olub ki, 140 dollar olub. Bu baxımdan orta qiymət 75 dollar kimi götürülür. Yəni qaz da bir il 200 dollar olacaq, növbəti il 150 dollar, bəzən isə 300 dollar olacaq. Orta qiymət necə olacaqsa, layihənin rentabelliyi o sayılır".

❑ **Nərgiz LİFTİYEVA**

# "Qardaşlıq hər bir sazişdən daha üstündür"

## **Razi Nurullayev:** "Hazırda belə bir mürəkkəb vəziyyət hökm sürür"

**Ermənistan hökuməti aprelin əvvəllərindəki itkilərdən sonra faktiki, siyasi böhran vəziyyətinə düşüb. Ona görə də indi Ermənistana müəyyən təxribatlar lazımdır. Ekspertlərin fikrincə, Ermənistan ya bu təxribatlarla Azərbaycanı növbəti hərbi əməliyyatlara çəkib sülh prosesinin pozulduğunu göstərməyə çalışacaq, ya da hansısa hərbi uğur əldə edib yaranmış vəziyyəti kompensasiya etməyə cəhd edəcək. Son bir neçə gündə Ermənistan ordusunun cəbhə xəttində atəşkəs rejimini müntəzəm pozması genişmiqyaslı müharibənin hər an başlayacağı ehtimalını artırır. Qarabağ məsələsi ilə bağlı beynəlxalq aləm tərəfindən təkliflər hazırlansa da, sülh prosesində hələ bir hərəkət yoxdur. Genişmiqyaslı hərbi əməliyyatların başlanacağı ehtimallarını bir qədər də artırır.**

Bəs genişmiqyaslı müharibə başlasa, Türkiyə Azərbaycana hərbi dəstək verərmi? Azərbaycanla Türkiyə arasında bunun üçün hansısa saziş varmı?

**Siyasi ekspert, Yeni AXCP-nin sədri Razi Nurullayev** bildirdi ki, indiki durumda Türkiyənin Naxçıvana hərbi dəstək verməsi üçün hüquqi əsaslar mövcud olsa da, Qarabağdakı müharibədə açıq şəkildə Azərbaycana hərbi dəstək verməsi mümkün deyil: "Düzdür, Azərbaycanla Türkiyə arasında Strateji Əməkdaşlıq Sazişi var. Lakin iki ölkə arasında hərbi saziş yoxdur. Belə bir hərbi saziş imzalansa, o zaman Türkiyə Azərbaycana kömək edə bilərdi. Çünki Türkiyə Azərbaycanın tərəfində savaşsa, bu hal Rusiyanın da Ermənistanın yanında savaşması üçün bəhanə ola bilər. Xüsusən də Ermənistanla Rusiya arasında hərbi saziş var. Kollektiv Təhlükəsizlik Müqaviləsi də müəyyən öhdəliklər yaradır. Düzdür, bu müqavilənin Dağlıq-Qarabağ üçün keçərliliyi yoxdur, amma Ermənistan öz ərazisinin də təhlükə altına düşə biləcəyi ehtimalı ilə Rusiyanı buna vadar edə bilər.



Dünyada o qədər yalanlar və o qədər qanunsuz və müqaviləsiz işlər baş verir ki... Türkiyənin də Azərbaycana açıq hərbi dəstək verməsinə ehtiyac yoxdur. Amma kim inanar ki, qardaş Türkiyə qardaş Azərbaycanı dar gündə yalnız qoyar? Azərbaycan da Türkiyəni yalnız qoymaz. Qardaşlıq hər bir sazişdən daha üstündür. Rusiyanın Dağlıq Qarabağda gedən müharibədə Ermənistana hərbi dəstək verməsi üçün heç bir hüquqi baza yoxdur. Əgər böyük müharibə başlasa və Rusiya Qarabağda Ermənistana hərbi dəstək versə, o zaman Türkiyənin də heç nəyə baxmadan Azərbaycana hərbi dəstək verməsi reallaşa bilər. Nəzərə almaq lazımdır ki, Qarabağ Azərbaycan ərazisidir və dünya tərəfindən də belə qəbul olunur. Azərbaycanın müstəqil dövlət olaraq öz ərazisinə strateji müttəfiqi olan Türkiyəni dəvət etməsi hüququnu heç kim əlindən ala bilməz".

**"Qarabağda böyük müharibənin hər an başlaya biləcəyini nəzərə alaraq təcili şəkildə Türkiyə ilə Azərbaycan arasında hərbi müttəfiqlik sazişi imzalanmasına zərurət varmı" sualına isə ekspert belə cavab verdi:** "Düşünürəm ki, belə bir sazişin təcili surətdə imzalanmasına ciddi ehtiyac var. Əminəm ki, Azərbaycanın siyasi rəhbərliyi də bu ehtiyacı görür. Lakin Azərbaycanla Türkiyənin hərbi saziş bağlaması həmsədr ölkələrin xoşuna gəlməyəcək və Azərbaycana qarşı ittihamlar irəli sürüləcək. Rusiya o zaman Ermənistanla sazişini yeniləyəcək və onu qorumağı üzərinə götürəcək. Türkiyə də zərbə altında qala bilər. Məsələ yalnız Rusiyada deyil, İran faktoru da gündəmə gələcək. Hətta Gürcüstan belə narahat olacaq. ABŞ və Fransa belə, sazişə qarşı açıq etiraz edəcəklər. Səbəbini də Qarabağda sülh prosesinə zərbə kimi göstərəcəklər. Yəni ikili və üçlü standartlar iki qardaş ölkə arasında hərbi sazişi çətinləşdirir.

Azərbaycan Şimali Kipr Türk Cümhuriyyətini tanıya bilmir. Amma istəyir. Azərbaycan bunu edərsə, Yunanıstan da Qarabağla bağlı analoji addım ata bilər. Gördüyünüz kimi, bəzən qardaşlar da aralarına sərhəd qoymağa məcbur olurlar. Hazırda belə bir mürəkkəb vəziyyət hökm sürür".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 90 (6411) 27 aprel 2016

# İrəvanda terror: ermənilər öz qazdıqları quyuya düşürlər

**Apreli 25-də Ermənistanın paytaxtı İrəvanda avtobusun partlaması xəbəri yayıldı. Cəbhədə vəziyyət gərgin olduğu zaman, Serj Sərkisyan "Bloomberg" agentliyinə verdiyi məlum açıqlamanın ardınca bu cür hadisənin baş verməsi, ortada erməni təxribatının olmasını istisna etmir.**

Tamamilə mümkündür ki, Ermənistan tərəfi bunu planlı şəkildə həyata keçirərək, cəbhədə vəziyyətin gərgin olduğu dönəmdə bunu guya Azərbaycan tərəfinin etdiyini beynəlxalq aləmə bəyan etsin. Onu da qeyd edək ki, 1990-cı ilin əvvəllərində Qarabağda vəziyyətin gərgin olduğu zamanlarda ermənilər Bakıda da terror hadisələri törədərək, müxtəlif təxribatlara əl atırdılar. Yaxın keçmişə nəzər salsaq görərik ki, Qarabağ münaqişəsi başlanandan ermənilər ölkə ərazisində çoxlu sayda terror hadisələri törədiblər. Onların törətdikləri teraktlar əsasən əhalinin daha çox istifadə etdiyi sərnişin avtobusu, qatar, metro və hava nəqliyyatında olub.

Onlardan bəzilərini yada salaq: 16 sentyabr 1989-cu il - Tbilisi-Bakı marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılıb, 5 nəfər həlak olub, 25 nəfər yaralanıb. Bu hadisədən 1 ildən də az vaxt keçdikdən sonra 13 fevral 1990-cı il Yevlax-Laçın avtomagistralının 105-ci kilometrində Şuşa-Bakı marşrutu ilə hərəkət edən avtobus partladılıb. Hadisə nəticəsində 13 nəfər azərbaycanlı yaralanıb. Həmin ilin 11 iyul 1990-cı il tarixində Tərtərdən Kəlbəcərə sərnişin aparan avtobus və xalq təsərrüfatı malları daşıyan maşın karvanına qarşı ermənilər tərəfindən terror aksiyası keçirilmiş, nəticədə 1 qadın, 7 kişi qətlə yetirilib, 23 nəfər isə ağır yaralanmışdı. İstintaq zamanı müəyyən edilmişdi ki, terror aksiyasını Ayriyan Arkadi, Abramoviç və Babayan Samvel Andronikoviç törədiblər. Onlar həmçinin 1990-cı il dekabrın 15-də Əsgəran rayonunun Cəmilli və Kosalar kəndi arasında 3 nəfər azərbaycanlı kəndlini qətlə yetiriblər. Hər 2 cinayətkar həbs olunub, 1992-ci il iyunun 19-da ölüm hökmünə məhkum ediliblər.

Siyahını daha da uzatmaq olar. 20 noyabr 1991-ci il Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında erməni terrorçuları tərəfindən "Mi-8" tipli vertolyot vurulub. Nəticədə Xankəndinə sülhməramlı missiya ilə səfər edən 22 nəfər yüksək çinli dövlət məmuru dünyasını dəyişib. 28 yanvar 1992-ci il Şuşa şəhəri yaxınlığında Ağdam-Şuşa marşrutu ilə sərnişin daşıyan mülki vertolyot erməni terrorçuları tərəfindən vurulub, əksəriyyəti qadın və uşaq olan 41 nəfər sərnişin və 3 ekipaj üzvü həlak olub.

19 mart 1994-cü il Bakı Metropoliteninin "20 Yanvar" stansiyasında elektrik qatarında törədilmiş terror aktı nəticəsində 14 nəfər həlak olub, 49 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdı. İstintaq tədbirləri zamanı müəyyən edilib ki, terror aksiyası Ermənistan XXO rəhbərliyi ilə separatçı Sadval Ləzgi Xalq Hərəkatı təşkilatının üzvləri tərəfindən həyata keçirilib. 3 iyul 1994-cü il Bakı Metropoliteninin "28 May" - "Gənclik" stansiyaları arasında elektrik qatarında törədilən partlayış nəticəsində 13 nəfər həlak olub, 42 nəfər müxtəlif dərəcəli bədən xəsarəti alıb.

Statistik rəqəmlərə görə, indiyədək ermənilər tərəfindən mülki şəxslərə və hərbçilərə qarşı 338 terror aktı törədilib. Bu zaman həlak olanların sayı 881 nəfər, yaralananların sayı isə 1239 nəfər olub.

## Zahid Oruc: "Sərkisyanı devirə bilməyənlər kriminal üsullara əl atacaq"



Ermənistanda baş verən son partlayışla bağlı "Yeni Müsavat"a danışan deputat Zahid Oruc bildirdi ki, İrəvanda avtobusun partlamasının süni hadisə olduğunu, yoxsa orada hansısa hərbi sursat partladıldığını təyin etmək çox çətindir: "Çünki hazırkı dövrdə belə hadisənin lokal maraqdan, adi kriminal cinayət kimi qələmə verilməsi doğru olmazdı. İkincisi, bunun cəbhədəki vəziyyətlə birbaşa bağlı olduğunu düşünmürəm. Lakin şübhə etmirəm ki, Ermənistanda hakimiyyət və xalq arasında münasibətlər gərginləşdikcə və 4 günlük müharibənin təsirləri daha ağrılı bir fazaya keçdikcə mümkündür ki, ölkədə vəziyyət nəzarətdən çıxsın. Belə olan təqdirdə Sərkisyan əleyhidarları hər cür vasitəyə əl ata bilərlər. Ter-Petrosyan və Sərkisyanın görüşündən sonra Köçəryan dərhal kəskin bəyanat vermişdi ki, onun belə bir həmrəylik addımına ehtiyacı yoxdur. Qısa müddət sonra Köçəryanın evinə qranat atıldı və guya hakimiyyət bu hadisənin izinə düşmək istədi. Deməli ki, Ermənistanda nəzarətdən kənar olan xeyli silah və sursat var. Eyni zamanda siyasi vasitələrlə Sərkisyanı devirə bilməyənlər müxtəlif kriminal hadisələrə əl atacaqlar. Bu hadisə fonunda Ermənistanın nə Türkiyənin, nə də Azərbaycanın içərisinə qədər sızmaq və diversiyanı İrəvanda aparmaq kimi iddialarına heç bir əsas verilməyib. Ermənistan maksimum istəyərdi ki, atəşkəs Qazaxdan, Gədəbəydən, yaxud da Naxçıvan tərəfdən pozulsun ki, Nikolay Bordyujaya real faktlar göstərsinlər ki, Azərbaycan İrəvanın təhlükəsizliyini, oradakı vətəndaşların həyatını təhdid edir".

**Z. Oruca görə, baş verən hadisə özünün səviyyəsindən çıxır:** "Bu hadisənin terakt, yoxsa başqa bir səbəbdən baş verməsini söyləmək çətin olsa da, görünən bir şey var. Hadisə artıq dərəcədə siyasi rəng almağa başlayır. Hiss olunan budur ki, artıq hazırkı hakimiyyətin əleyhidarları Sərkisyanın duruma nəzarət edə bilmədiyini, hərbi siyasi qüvvələrlə xalqın maraqlarında ciddi toqquşmaların olduğunu göstərirlər. Buna görə də ehtimal edirəm ki, hadisələr bundan sonra daha ciddi silahlı qarşıdurma şəklini alacaq. Yəni ermənilərin içərisində elə qüvvələr tapılacaq ki, Qarabağ məsələsi İrəvanda həll olunur, deyərək silah götürsünlər və Sərkisyanın üzərinə getsinlər".

❑ Əli RAİS




# TANAP-a kredit ayrıldı - təhlükə sovuşdu...

## Ekspertlər bildirirlər ki, Dünya Bankı ilə Avropa İnvestisiya Bankının ayırdığı kredit layihənin icrasına ciddi şəkildə köməklik göstərəcək

**Trans-Anadolu qaz kəməri (TANAP) layihəsində hərəkətlilik başlanıb. Dünya Bankı TANAP-a 1 milyard dollar, Avropa İnvestisiya Bankı 1 milyard avro ayırır. Bank rəsmisinin açıqlamasında bildirilir ki, DB enerji sektorunda strateji əhəmiyyət kəsb edən TANAP layihəsinin bir parçası olmaq niyyətindədir: "BOTAŞ-ın maliyyələşdirilməsində yardımçı olacağıq. Söhbət təxminən 1 milyard dollarlıq maliyyə dəstəyindən gedir. Eyni zamanda biz Avropa İnvestisiya Bankı ilə əməkdaşlıq edirik.**

TANAP-ın 58 faizi SOCAR-a, 30 faizi BOTAŞ-a, 12 faizi isə BP şirkətinə məxsusdur. Hər bir səhmdar bu bölgüyə müvafiq olaraq layihəni maliyyələşdirir. Dünya Bankı və Avropa Birliyinin borc vermə mexanizminə uyğun olaraq Avropa İnvestisiya Bankı TANAP-a sərmayə yatırmağa hazırlaşır. Pay bölgüsünə uyğun olaraq, BOTAŞ TANAP-a 3 milyard dollarlıq yatırım etməlidir. Bunun üçün BOTAŞ Dünya Bankından 1 milyard dollar, Avropa İnvestisiya Bankından isə 1 milyard avro cəlb edəcək".

TANAP-a Gürcüstan-Türkiyə sərhədindən Türkiyə-Yunanıstan sərhədinə qədər uzanan, ümumi uzunluğu 1850 kilometr olan qaz kəmərləri sistemi, dənizdən keçən qısa hissə, birləşdirici xətlər, kran qovşaqları, ərsinlə təmizlənmə stansiyaları, ölçmə, kompressor stansiyaları və digər infrastruktur daxildir.

Kəmərin inşası layihəsi üzrə sənədlər paketi 2012-ci il iyunun 26-da İstanbulda imzalanıb. TANAP "Mərhələ-2" çərçvəsində "Şahdəniz" yatağından hasil edilən Azərbaycan qazının Gürcüstan-Türkiyə sərhədindən Türkiyənin qərb sərhədlərinə qədər nəqli üçün nəzərdə tutulub. Qaz kəmərinin ötürmə qabiliyyətinin ən azı 16 mlrd. kubmetr təşkil edəcəyi ehtimal olunur. Bu həcmin 10 mlrd. kubmetri Avropaya, 6 mlrd. kubmetri Türkiyənin qərb regionlarına göndəriləcək.

SOCAR-ın qiymətləndirmələrinə əsasən, 2023-cü ildə kəmərin gücü 23 mlrd. kubmetr, 2026-cı ildə isə 31 mlrd. kubmetrə çatdırılacaq. Eyni zamanda TANAP-ın genişləndirilməsindən sonra Azərbaycanda digər yataqlardan, o cümlədən başqa ölkələrdən hasil edilən qaz mənbə kimi istifadə olunacaq. Layihə 10 milyard dəyərində qiymətləndirilir. TANAP layihəsində şirkətlərin iştirak payı aşağıdakı kimidir: SOCAR- 58 faiz, BP- 12 faiz, BOTAS- 30 faiz paya sahibdir.

**Ekspert Rəşad Həsənov məsələ ilə bağlı musavat.com-a bildirib ki, Dünya Bankı ilə Avropa İnvestisiya Bankının ayırdığı kredit layihənin icrasına ciddi şəkildə köməklik göstərəcək:** "TANAP layihəsi ümumilikdə götürdükdə on milyardlıq bir layihədir. İki milyard artıq 20 faiz maliyyə mənbəyi deməkdir, müəyyən işlər də görülüb. Azərbaycan da bununla bağlı bir milyardlıq istiqraz yerləşdirib. Vəsaitin daxil olması proseslərin müəyyən qədər davam etdirilməsini dəstəkləyəcək. Xüsusilə Türkiyənin 30 faizlik payının maliyyələşdirilməsində böyük rol oynayacaq. Yəni bir çox hallarda cəmiyyətdə yanlış başa düşülən bir məqam da ondan ibarətdir ki, bu, Azərbaycan üçün borclanma deyil. Azərbaycan dövləti tərəfindən və yaxud da şirkətləri tərəfindən deyil, Türkiyənin BOTAS şirkəti tərəfindən alınan borcdur. Türkiyə dövləti BOTAS-ın təmsilçiliyi ilə növbəti dövrlərdə kreditin geri qaytarılması ilə məşğul olacaq. Ümumi götürəndə TANAP və TAP layihələri çox böyük layihələrdir ki, iqtisadi və maliyyə baxımından çox pis vaxta təsadüf etdi. Azərbaycanın bu layihələrin icrasındakı payını yerinə yetirmək üçün bundan sonra ciddi şəkildə borclanma ehtiyacının olacağını düşünürəm".

Qeyd edək ki, bir müddət əvvəl bu nəhəng layihənin tikintisinin təhlükə altında olduğu bildirilirdi. Ekspertlər bildirirdilər ki, ölkədəki iqtisadi böhran səbəbindən iri layihələrin taleyi sual altındadır. Hətta TANAP və TAP kimi enerji layihələrinin tikintisinin hansı şəkildə davam etdiriləcəyi ciddi suallar doğurur. Bir çox ekspertlərin fikrincə, bu layihələr gələcəkdə Azərbaycan üçün gəlir yeri deyil, büdcə üçün əlavə yük ola bilər. Çünki ölkə iqtisadi böhran şəraitində hətta bu layihədəki payını məcbur olub sata bilər ki, bu da əlavə problemlər yaradacaq.

**Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a bildirib ki, layihələrlə bağlı müxtəlif narahatedici xəbərlər dolaşır. Onun sözlərinə görə, müqavilələri imzalayarkən tam fərqli bir durumda idik, indi isə getdikcə maliyyə vəziyyətimiz, ölkənin gəlirləri aşağı düşür və bu layihələrdə Azərbaycanın payı kifayət qədər yüksəkdir. Yəni Azərbaycanın həm rezervlərinə, həm ümumiyyətlə bu layihələrin gələcək perspektivi nöqteyi-nəzərindən ağır yük olacaq. Problem onda olacaq ki, bir neçə il, hətta 10-15 il Azərbaycan qoyduğu vəsaitin geri qaytarılmasına çalışacaq. Qazanc haqqında danışmaq belə yersiz olacaq. Söhbət on il və daha artıq müddətdən gedir:** "Bu layihələrin həyata keçirilməsi təbii ki, vacibdir. Azərbaycanın gələcəkdə enerji bazarında müəyyən rol oynaması üçün çox vacib layihələrdir".

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 90 (6411) 27 aprel 2016

# Cümhuriyyətimizin işğalından 96 il ötür

## Nəsiman Yaqublu: "Bakıda olan türk zabitləri ruslarla danışıqlara getdilər"

## Dilavər Əzimli: "Azərbaycanın hüquqi var ki, İrəvanı qaytarsın"

**Azərbaycan Xalq Cümhuriyyətinin işğalından 96 il ötür. 1920-ci il aprelin 27-də yerli kommunistlərin dəstəyi ilə XI Qırmızı Ordunun 23 aylıq gənc dövlətimizə qarşı təcavüzü cümhuriyyətimizin işğalı ilə nəticələndi. Bununla da Azərbaycanda 71 il davam edən sovet rejiminin hökmranlığı başladı.**



**Həmin dövr tarixinin əsas araşdırıcılarından olan Bakı Dövlət Universitetinin müəllimi, tarixçi alim Nəsiman Yaqublu "Yeni Müsavat"a açıqlamasında Cümhuriyyətimizin işğalını belə şərh etdi:** "Aprelin 27-də Cümhuriyyətimizin işğalının bir neçə səbəblərini sadalamaq mümkündür. Birincisi daxili, ikincisi xarici səbəblərdən baş verib. Üçüncü səbəb buradakı bolşevik azərbaycanlıların davranışları ilə bağlıdır. Daha bir səbəb də burada olan türk zabitləri və əsgərlərinin fəaliyyəti ilə bağlıdır. Əvvəla, işğal tarixi 28 aprel deyil, 27 apreldir. Uzun illər xalqı əsl həqiqətlərdən yayındırmaq üçün yalan xəbərlər verdilər ki, guya Azərbaycan aprelin 28-də işğal olunub. Əslinə qalsa, bu tarixdə sovet hakimiyyəti qurulub. Bunu özləri də etiraf edirlər. Aprelin 26-dan 27-nə keçən gecə sovet ordusunun hissələri Azərbaycan sərhədini keçiblər. Bu, birbaşa işğaldır, Azərbaycanda sovet hakimiyyətinin qurulması deyil. Mövcud rejimi devirib, Azərbaycanda amansız bir terror rejimi yaratdılar. Burada Cümhuriyyətimizi devirməkdə əsas maraqlı qüvvə bolşevik Rusiyası idi. Rusiya yaxınlığında müstəqil dövlətin olmasını istəmirdi. Bura keçmiş Çar Rusiyasının ərazisi kimi yanaşırdı. Bölünməz Rusiya ideyası ilə çıxış edirdilər. Çalışırdılar ki, Azərbaycanın sərvətinə və neftinə sahib olsunlar. Əvvəl ermənilərin, sonradan özlərinə uyğun bolşeviklərin əli ilə bunu həyata keçirməyə başladılar".

**Tarixçi alim Azərbaycan xalqının rus işğalını müqavimətlə qarşıladığını da qeyd etdi:** "Azsaylı ordumuz 60-70 minlik XI Qırmızı Ordu hissələrinə qarşı mübarizə aparmaq gücündə deyildi. Amma XI Qırmızı Ordu sərhədimizə daxil olanda 1500-ə yaxın silahlı qüvvələrimiz onlarla döyüşdülər. O döyüşlərdə onların çoxu həlak oldu. Bu haqda da heç nə yazılmır. Deyirlər ki, guya Qırmızı Ordunu əhval-ruhiyyə ilə qarşılamışıq. Hətta bununla bağlı "20 Yanvar" metro stansiyasının yaxınlığında heykəl də ucaltmışdılar. Qətiyyən belə deyil. XI Qırmızı Orduya qarşı döyüşlər gedib. Nə qədər insan bu döyüşlərdə həlak olub. Sadəcə olaraq, erməni faktoru burada mühüm rol oynayıb. Ermənilər daim satqın mövqedə olublar. Bolşevik Rusiyasının Qafqazda vassalları kimi çıxış ediblər. Həmin vaxt onlar rus bolşevikləri ilə əlaqəyə girərək, Qarabağda qiyam qaldırdılar. Biz də məcbur olub, ordu hissələrimizi Qarabağa apardıq. Nəticədə Xaçmaz, Yalama tərəfdən sərhədlərimiz boş qaldı. Azərbaycanlı bolşeviklər də o dövrdə xəyanət yolunu seçdilər. Onlar düşünürdülər ki, sovet rejiminin qurulması ilə xalqımız xoşbəxt olacaq. Səbəblərdən biri də həmin vaxt Bakıda olan türk zabitlərinin ruslarla danışıqlara getməsi olub. Bolşeviklər onları aldatdılar ki, Türkiyəyə köməyə gedirik, amma Xalq Cümhuriyyəti buna imkan vermir. Türk zabitləri hökumətdən tələb etdilər ki, imkan verin XI Qırmızı Ordu buradan Türkiyəyə getsin. İki gün eyni vaxtda Bakıda türk və bolşevik bayraqları yanaşı gəzdi. Bununla əhalini çaşdırdılar ki, guya bura girən rus bolşevikləri yox, türk zabitləridir. Sonradan bolşeviklər həmin türklərə qadağan etdilər ki, burada türk bayrağı gəzdirmək, türk adından çağırış etmək qadağandır. Həmin türk zabitlərinin hətta bəziləri aradan götürüldü, bəziləri də ölkədən getdilər. Sonradan Türkiyədə keçirilən istiqlal məhkəməsində həmin türk zabitlərindən olan Xəlil Paşanın qohumu Tələt Paşa bildirdi ki, biz həmin vaxt düzgün mövqe tutmadıq, bu da Azərbaycan hökumətinin devrilməsinə imkan yaratdı. Cümhuriyyətə verilən 12 saatlıq ultimatumdan sonra hakimiyyət bolşeviklərə 6 şərtlə təhvil verilirdi. Bu şərtlərə bolşeviklər əməl etsəydilər, bu cür qəddar rejim yaranmazdı. Həmin şərtlər bunlardır: Azərbaycanda heç bir siyasi partiya fəaliyyətinə görə təqib edilməyəcək, siyasilərə qarşı təqib olmayacaq, bu şərtlər altında Azərbaycanın müstəqilliyi müəyyən dərəcədə qorunur. Amma təəssüflər olsun ki, şərtlərə əməl olunmadı, Azərbaycan işğal altında qaldı. Birpartiyalı amansız rejim yaradıldı. Məhəmməd Əmin Rəsulzadə başda olmaqla, Cümhuriyyət qurucularına qarşı amansız qisasçılığa başladılar. 150-yə qədər silahlı üsyan baş verdi. Bu mübarizədə minlərlə insan həlak oldu".

**Cümhuriyyətimizlə bağlı gündəmə gələn bəzi tarixlərin fonunda daim bir məsələ də aktuallaşır. Bu, 1918-ci il mayın 28-də yaranan Xalq Cümhuriyyətinin İrəvanı ermənilərə təhvil verməsidir. Mayın 29-da əzəli torpağımız olan İrəvanın ermənilərə 99 il müddətində icarə əsasında verildiyi deyilir. Bunu nəzərə alsaq, bir il sonra həmin müddət bitir. Azərbaycan hökumətinin bununla bağlı atmalı olduğu addımlar maraq doğurur. Hazırda düşmən ölkənin paytaxtı olan tarixi ərazimizi geri qaytarmaq mümkündürmü?**

**Tarixçi alim Dilavər Əzimli İrəvanın 99 il müddətində icarə əsasında ermənilərə verildiyi barədə bir fakta rast gəlmədiyini bildirdi:** "Heç bir protokolda, tarixi sənəddə bununla bağlı fakt yoxdur. İrəvanın verilməsi həmin dövrdəki situasiya ilə bağlı idi. Amma orada şərtlər var. Bu şərtlər daxilində məsələ həllini tapmalı idi. Amma ermənilər buna əməl etmədilər. Bu mənada Azərbaycanın hüquqi var ki, İrəvanı qaytarsın. Hesab edirəm ki, qaytaracaq da. Həmin vaxt İrəvan quberniya kimi Rusiyanın tərkibində idi. Bu gün bu günə baxıb, həmin tarixi belə də düşünmək ədalətsizlik olar. Tarixə həmin gündən yanaşmaq lazımdır. İrəvanın verilməsinə hamımız üzülürük, amma nəzərə alaq ki, bu olmasaydı, bu günkü Azərbaycan dünya xəritəsində olmayacaqdı. Fürsətdən istifadə edib, qəzetiniz vasitəsilə həmin dövrü araşdıranlara müraciət edirəm, bu günə baxıb, məsələyə bu prizmadan yanaşmasınlar. Hələ də düşmənin yazdığı tarixin təsirindəyik".

❑ Cavanşir ABBASLI

# Bakıya üç həftə sonrakı zəng

## ABŞ nə etmək istəyir?



**Aprelin əvvəlində Qarabağ cəbhəsində 4 günlük müharibədən sonra ilk dəfə aprelin 25-də ABŞ dövlət katibi Con Kerri Azərbaycan və Ermənistan prezidentlərinə zəng edib. Rəsmi xəbərdə deyilir ki, Con Kerri İlham Əliyev və Serj Sərkisyanla Dağlıq Qarabağ münaqişəsinin həllinin vacibliyindən danışıb.**

ABŞ-ın uzun fasilədən sonra prosesə dövlət katibi səviyyəsində müdaxilə eləməsi maraq doğurmaya bilməz. ABŞ bununla nə demək istəyir? Məqsəd nədir?

**Politoloq Natiq Miri** bildirdi ki, ABŞ dövlət katibinin məhz aprelin 25-də günün sonu zəng eləməsi Ermənistan prezidenti Serj Sərkisyanın "Blomberq" agentliyinə verdiyi müsahibəsindəki bəyanatlarla bağlı verilən reaksiyadır. Müsahibə yayılandan dərhal sonra Con Kerri hər iki dövlət başçısına zəng edib: "Bu zəng əslində heç də Azərbaycanın marağına uyğun sayıla bilməz. ABŞ dövlət katibi yaxşı olardı ki, yalnız işğalçı tərəfə-Ermənistan prezidentinə zəng edəydi və onu qeyd-şərtsiz danışıqlar masasına oturmağa çağıraydı. Azərbaycan sülh danışıqlarına hazır olduğunu bəyan edib. Danışıqlara hazır olmayan Ermənistandır. ABŞ sanki Azərbaycanı dayandırmaq, Sərkisyanın müsahibəsindəki şərtlərin həyata keçirilməsi ilə danışıqların başlanmasına nail olmaq istəyir. ABŞ-ın az qala bir aydan sonra dövriyyəyə girməsinin arxasında səmimiyyət dayanmır, məkrli oyunun işartıları görünür. Sərkisyanın təhdid xarakterli müsahibəsi Rusiyanın təlimatı ilə verilmiş müsahibədir və məqsəd ABŞ-ı status-kvonun bərpa edilməsi üçün Azərbaycana təsir göstərməyə cəlb etmək idi. ABŞ dövlət katibi Serj Sərkisyandan müharibəyə qətiyyən başlamaq olmaz tələbini etsəydi, o halda onun obyektivliyinə, səmimiyyətinə inanmaq olardı. İndiki halda isə danışıqlardan imtina edən, müharibə təhdidi ilə çıxış eləyən Ermənistan olduğu halda daha çox Azərbaycandan müharibəyə başlamamaq istənilir. ABŞ üçün Azərbaycanın torpaqlarının işğalda qalması və ya azad edilməsinin əhəmiyyəti yoxdur. ABŞ-ın yeganə istəyi status-kvonun saxlanması-müharibənin olmamasıdır. Status-kvonun saxlanması isə Azərbaycanın marağına uyğun deyil. Bunu Azərbaycan prezidenti də dəfələrlə bəyan edib".

**Politoloq Elxan Şahinoğlu isə hesab edir ki, ABŞ dövlət katibi Con Kerrinin telefon zəngi gecikib. Rusiyalı rəsmilər az qala Bakı və İrəvanda yatıb qalxırlar, amerikalı rəsmilərin isə indi yadlarına düşüb ki, hərdən Cənubi Qafqazla da maraqlanmaq lazımdır:** "Barak Obama üçün Cənubi Qafqaz ümumiyyətlə aktual deyil. Kerrinin də zənginin yeganə mənası budur ki, sanki ruslara deyir ki, "buralarda biz də varıq". Bir azdan Parisdən də zənglərin sayı artacaq. Onların istəyi necə olur-olsun hərbi qarşıdurmanın baş verməsinin qarşısını almaqdır. Danışıqlarda nəticə olmasa da, hər halda, amerikalı və fransalı rəsmilərin və diplomatların telefon zənglərindən və bölgəyə gələcək səfərlərindən yararlanmaq lazımdır, əsas odur ki, rusların təkbaşına vasitəçilik təşəbbüslərinin qarşısı mümkün qədər əngəllənsin".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 90 (6411) 27 aprel 2016

# Kürdəmir sakininə məscidin qarşısında qanlı divan tutulub

## Solmaz Piriyeva: "Oğlumun gözlərindən qan gəlirdi, əlləri, ayaqları sındırılıb, işə baxan yoxdur"



**"Baş prokuror Zakir Qaralovdan dönə-dönə xahiş edirəm, bu işin Kürdəmir Prokurorluğundan alınıb Bakı Prokurorluğunda araşdırılmasına göstəriş versin. Oğlumun qanını batırırlar". Bu sözləri "Yeni Müsavat"a müraciət edən Solmaz Salman qızı Piriyeva deyib. Onun sözlərinə görə, oğlu 1974-cü il təvəllüdlü Qılman Qanur oğlu Piriyevin qanını batırmaq istəyirlər:**

"Martın 30-da Kürdəmir rayonu, Sığırlı kəndindəki məscidin qarşısında oğlum Qılmanı qonşumuz Asif Fərəcov və qohumları - qayınatası Kərim Kərəmov, dayıları Müslüm və Elbrus Kərəmovlar döyüblər. Oğlum həmin gün məscidə namaz qılmağa gedib. Onu məsciddən çölə Asif Fərəcov çağırıb. Qılman çölə çıxandan sonra Asif qollarını, qayınatası Kərim isə ayaqlarını tutub. Dayısı Elbrus oğlumun başından montirovka ilə vurub. Qılman yerə yıxılıb. Bundan sonra əllərində olan montirovka ilə oğlumun bədəninə çoxsaylı zərbələr endiriblər. Onun dayısı yerə yıxılmış oğlumun başına 20-yə yaxın zərbə vurmağa çalışıb. Lakin oğlum yerə yıxılandan sonra başı səkinin kənarına düşdüyündən zərbələrin çoxu səkinin kənarına dəyib. Betondan olan səki kənarı dəlik-dəlikdir. Əgər oğlum səki kənarına yıxılmasaydı, başına endirilən zərbələr səki kənarına dəyməzdi. Oğlumu ölümdən Allah saxlayıb".

**Solmaz Piriyeva deyir ki, oğlunun döyülməsi anı ərazidə quraşdırılmış videokameraya düşüb:** "Asif və dayıları oğlumu döyəndən sonra ölmüş bilib ora gəldikləri "Ford" markalı maşına minib gediblər. Oğlumun döyülmə anı həmin kameraya düşüb. Biz videonu diskə yazıb Kürdəmir hüquq-mühafizə orqanlarına vermişik. Amma baxan yoxdur".

**S.Piriyevanın sözlərinə görə, Asif Fərəcovun oğlunu bu şəkildə döydürməsinə səbəb ola biləcək cəmi 1 hadisə baş verib:** "Asif Fərəcov hasar qonşumuzdur. Bu hadisədən əvvəl oğlum ona aramızdakı hasarın bir qədər hündür tikilməsi üçün müraciət eləmişdi. Asifə demişdi ki, bizim hasarı qaldırmağa imkanımız yoxdur, imkan varsa, hasarı qaldır. Oğlum hasarın qaldırılmasını o baxımdan Asifə demişdi ki, onun maddi imkanları yaxşıdır. Bakı-Ceyhan neft kəmərinin çəkilişi zamanı onların torpaq sahələri borunun keçdiyi əraziyə düşürdü, 80 min manat kompensasiya almışdılar. Oğlum Asifə deyəndən sonra o, "qaldırmıram, əcəb eləyirəm" deyib. Oğlum namaz qılan olduğunu, azyaşlı övladlarının olduğunu deməklə onların həyətinə gəlib gedənlərin çoxluğunu işarə etmişdi. Bu isə Asifin xoşuna gəlməyib. Bu söhbət 2 ay əvvəl olub. Bütün kənd danışır ki, Asif oğlumu buna görə öldürmək istəyib. Bu adamların pulu çoxdur deyə mənim aman-zaman bir oğlumu elə döyüblər ki, ölsün. Allah üzümə baxıb, oğlum sağ qalıb".

**S.Piriyeva deyir ki, oğlu hadisə yerindən Kürdəmir rayon xəstəxanasına aparılıb:** "20 gün xəstəxanada qaldı. Ona baxan olmadı. Oğlumun gözlərindən qan gəlirdi, əlləri, ayaqları sındırılıb. Kəllə sümüyündə sınıq var. Hər iki əlində 4-5 yerdə, ayaqlarında 4-5 yerdə sınıqlar var. Həkimlər ona baxmadılar. Mənim maddi imkanım olmadı deyə oğlumu xəstəxanadan çıxarıb evə gətirmişik. Mart ayından bu günə qədər oğlumun qızdırması düşmür. Qolundakı yara irinləyib. Mən hüquq-mühafizə orqanları rəhbərlərindən dönə-dönə xahiş edirəm, bu məsələni araşdırsınlar. Oğlumun ölümünə döyülməsi ilə bağlı Cinayət Məcəlləsinin 127-ci - yüngül xəsarət yetirmə ilə cinayət işi başlayıblar. İşə ancaq Elbrus Kərəmovu cəlb ediblər. O da videonun ortalıqda olduğunu biləndən sonra bunu ediblər. Guya Elbrus özü gedib təslim olub".

**S.Piriyeva deyir ki, bu, Elbrus Kərimovun ilk cinayəti deyil:** "Həmin Elbrus Kərimov 9 ay əvvəl öz qohumunun yanacaqdoldurma məntəqəsində operator işləyən Rafat Nizam oğlu Süleymanovu da montirovka ilə başından vurdu. Həmin uşaq ağır kəllə-beyin travması ilə 1 ay Bakıda xəstəxanada yatdı. Elbrusa 127-ci maddə ilə iş başlayıb şərti cəza ilə buraxdılar. Ona görə də bu adamlar daha ağır cinayət etdilər. Düşünürlər ki, pul verib oğlumun qanını batıracaqlar. Mən həmin videonu redaksiyanıza da təqdim edirəm. Özünüz də baxın, bu adamların əməli yüngül dərəcəli xəsarətdir, yoxsa adam öldürməkdir?"

**S.Piriyeva deyir ki, ölkə rəhbərliyinə də müraciət etməyə hazırlaşır:** "Qoy ölkə rəhbərliyi bilsin ki, Sığırlı kəndində qolçomaqlıq dövrüdür, Kürdəmirdə isə bəylik-xanlıq qurulub. Kimi istəyirlər günün-günorta çağı döyüb öldürürlər, baxan da yoxdur".

❑ **E.MƏMMƏDƏLİYEV**


**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbəbəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Elan**

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**



**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**



**Yenilik! Rusiyada təhsil almış və Moskvada müdafiə etmiş**
tibb elmləri namizədi, təcrübəli həkim
**Darya İvanovna**

**varikoz və postvarikoz trofik yaraları, habelə diabetik yaraları özəl metodika ilə, cərrahi müdaxiləsiz müalicə edir.**
**Tel (051) 634-40-01.**

YENİ MÜSAVAT
N 90 (6411) 27 aprel 2016

**Son vaxtlar Azərbaycanda xərçəng xəstəliyinin sayı artıb. Hətta bu sağalmaz xəstəlik gəncləri, uşaqları belə ağuşuna alıb. İstənilən apteka girdiyimiz zaman orada insan əlindən tərpənmək olmur. Hətta bir dərman almaq üçün növbə tutmalı oluruq. Maraqlıdır, Azərbaycanda niyə bu qədər çox xəstə var, bunun səbəbi qidalardır, yoxsa tamamilə başqa səbəblər mövcuddur? Nədən xərçəng xəstəliyi azalmaq əvəzinə, getdikcə daha da artır və gəncləşir?**

# Dünyada hər il 13 milyon insan xərçəngdən öləcək

Ümumdünya Səhiyyə Təşkilatının proqnozuna görə, 2010-2020-ci illər ərzində qeyri-infeksion xəstəliklər, o cümlədən ürək-damar xəstəlikləri və xərçəng xəstəlikləri ilə bağlı ölüm hallarının 15 faizədək artımı gözlənilir. Məlumata əsasən, 2025-ci ilədək dünyada 20 milyon yeni xərçəng xəstəliyi qeydə alınacaq. Həmin halların 4/5 hissəsi Azərbaycanın da daxil olduğu aşağı və orta gəliri olan ölkələrdə baş verəcək. Avropada 2012-ci ildə 4 milyon yeni xərçəng halı qeydə alınıbsa, 2030-cu ildə bu rəqəm ildə 5 milyona çatacaq. BMT-nin açıqladığı statistikaya görə isə hər il 7,6 milyon insan xərçəngdən həyatını itirir. Xərçəngdən ölənlərin sayının HIV/AIDS, vərəm və malyariyadan ölənlərdən daha çox olduğunu göstərir. Mütəxəssislər xəbərdarlıq ediblər ki, müalicə üsulu tapılmadığı təqdirdə 2030-cu ildən etibarən dünyada hər il 13 milyon insanın ölüm səbəbi xərçəng olacaq.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla xərçəng xəstəliyinin müxtəlif səbəbləri olduğunu dedi:** "Xərçəng xəstəliyinin əmələ gəlmə səbəbləri çoxsaylıdır. Əsas vacib səbəb isə hələ ki aşkarlanmayıb. Xərçəng xəstəliyi hansısa bir orqanın, bir qrup hüceyrənin anormal bölünməsi və çoxalmasıdır. Yəni bizim bədənimizdəki hüceyrələrin bölünməsi və çoxalması nəzarət altındadır. Bəzən bu nəzarət pozulur və bədənin resurslarında qeyri-tipik hüceyrələr çoxalır, yayılır, metastaz verir və s. Buna birinci səbəb uzunmüddətli qıcıqlanmalar, hüceyrənin qida sindromunun dəyişməsi, konsoragen maddələr, həmçinin fiziki və digər faktorlar, hormonal proseslər və çox şeylər səbəb ola bilər. Qidalar, fastfoodlar, pis vərdişlər, siqaret, alkoqol, piylənmə, az hərəkətlilik özü də xərçəng xəstəliyinin inkişafı üçün şərait yaradır. Yəni səbəblər həddən artıq çoxdur. Sadəcə olaraq, ərzaq məhsullarının da təhlükəsizliyi konsepsiyası olmalıdır. Bu, millətin genefondu üçün çox vacibdir. Bu, təkcə xərçəng xəstəliyi üçün deyil, eləcə də maddələr mübadiləsi xəstəliklərinin baş verməməsi üçün də önəmlidir. Ərzaq təhlükəsizliyinin konsepsiyası ondan ibarətdir ki, ölkəyə idxal olunan, ölkədə istehsal olunan ərzaq məhsullarının təhlükəsizliyi və xüsusilə də onların ayrı-ayrı xəstəliklərə malik olan inqridentlərə sahib olması nəzərdən keçirilib və bu iş ciddi nəzarət altında olub. Təəssüflər olsun ki, bu gün bu işdə çox böyük boşluqlar var".



**Adil Qeybulla:** "Bu xəstəliyin yaranma səbəbləri çoxsaylıdır"



**Eyyub Hüseynov:** "Xarici ölkələrdə apteklərə girənlərin sayı Azərbaycandakından dəfələrlə azdır"

**Xəstəliyin yaranmasına bir səbəb də qidaların olduğu güman edilir. Son günlər mətbuatda at, eşşək ətlərindən kolbasalar və nə qatıldığı bəlli olmayan qidalarla bağlı çoxlu sayda yazılar dərc edildi. Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov xarici ölkələrdə apteklərin və apteka girən insanların sayının Azərbaycandakından dəfələrlə az olduğunu dedi:** "Mən axırıncı dəfə Yeni Zelandiyada, Braziliyada olarkən oradakı aptek saylarının Azərbaycandakından dəfələrlə az olduğunu gördüm. Apteklərdəki insanların sayı da az idi. Azərbaycanda aptekə girəndə insan əlindən tərpənmək olmur. Növbələr yaranır. Görün nə qədər insanlarımız xəstədir. Dövlət iş aparmalıdır ki, Azərbaycanda nə baş verir ki, bu qədər insan xəstədir. Bütün dünyada qida təhlükəsizliyi haqqında qanun var. Azərbaycanda nə üçün olmasın? Nə üçün Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) göstəricilərində qida zəhərlənmələri Azərbaycandakından 250 dəfə az göstərilir? Çünki qidalara sertifikat verən orqanlar əhalinin sağlamlığının keşiyində durmalıdır. Sertifikat verilən orqan mütləq olmalıdır. Çox təəssüflər olsun ki, biz Azad İstehlakçılar Birliyi (AİB) olaraq, beynəlxalq təşkilatın üzvü olaraq, 120 ölkə ilə əlaqəmiz olmasına baxmayaraq bu təşkilatla heç bir dialoq aparılmır. Hökumətdən mənim heç bir imtiyazım yoxdur. Sadəcə olaraq, qulaq assınlar ki, nə demək istəyirik. Sizin qəzet vasitəsilə çığırıb-bağırırıq ki, ay camaat, buna çarə qılın, bizə heç kim əhəmiyyət vermir. Əlbəttə ki, qanun olmayan yerdə mütləq cinayət baş verir. Mənim əlimdə siyahı var ki, ölkəmizdə 800-ə yaxın mal sertifikatlaşdırılmadan satılır. Bəzilərinə isə saxta sertifikatlar veriblər. Ümid edirəm ki, bizim bu həyəcan təbilimiz bir faydasını verəcək".

❑ **Günel MANAFLI**

# NASA cəhənnəmi "tapdı"

## Kənan Rövşənoğlu: "Bu cür cənnət-cəhənnəm "ünvanları" ciddi sayıla bilməz"

**Cənnət və cəhənnəmlə bağlı müxtəlif zamanlarda müxtəlif fikirlər səslənmiş, ideyalar irəli sürülmüşdü. Ancaq indiyə kimi cənnət və cəhənnəmlə bağlı dəqiq heç bir məlumat olmayıb. Quranda belə cənnət və cəhənnəmin harada olduğuna dair bir işarə yoxdur.**

Bugünlərdə NASA cəhənnəmi aşkar etdiyini iddia edib. Belə ki, NASA-da bir neçə il əvvəl "Tam məxfi" adı altında sensasiyalı məlumat saxlanılırdı. 9 avqust 1973-cü ildə astronavtlar "Skayleb - 2" kosmik gəmisinin göyərtəsindən ABŞ kosmik araşdırmalar laboratoriyasının əməkdaşlarına son dərəcə heyrətləndirici məlumat ötürüblər. Məlumatda bildirilir: "Cəhənnəm Günəşin ortasında yerləşir. Biz ölülərin necə yandığını görürük. Biz cəhənnəmi görürük". Rabitə bir neçə dəqiqəyə kəsilir, bunun ardınca isə astronavtlar kosmik fəzadan uçuş üçün normal məlumatlar ötürürlər. Sanki bundan əvvəlki sensasiyalı xəbəri ötürən onlar olmayıb. NASA mütəxəssisləri bu hadisə ilə bağlı bütün şayiələri 16 il müddətində təkzib etdilər. Lakin 1985-ci ildə Amerikanın "Dünya elmi" jurnalı bu sirrin pərdələrini qaldırdı və bu məlumat dərc olundu. 1978-ci ilin avqustunda kosmik gəminin göyərtəsində yerləşən astronavtlar spektoqramın (spektrin foto şəkli) köməyi ilə günəş partlayışını araşdırırdılar və bütün dəyişikliklər fotolentdə öz əksini tapırdı. Bu müşahidələr zamanı Günəşdə olduqca güclü partlayış baş verir. Odlu kürənin içindən 800 min kilometr hündürlüyündə alov sütunu ucalır. Bu maye axın gözlənilmədən heyrətdən şoka düşmüş müşahidəçilərin gözləri önündə sönür. Cihaz 70 saniyə ərzində dəhşətli yuxuya bənzəyən görüntüləri qeydə alır: Bu alovlu sütunda əbədi odda yanaraq əzab çəkən yüzlərlə insan siması peyda olur. Əvvəlcə astronavtlar bunun hallüsinasiya olduğunu düşünürlər, lakin bu üz cizgiləri çox dəqiq idi. Astronavtlar ateistlərin fərziyyə hesab etdiyi cəhənnəmi gördülər. Jurnal iddia edir ki, hazırda amerikalıların 42 il əvvəl aldıqları bu məlumat çox diqqətlə araşdırılır. Bu sensasiyalı məlumatdan 10 il sonra bəzi Amerika nəşrləri oxuculara daha bir fantastik hadisə barədə yazıblar. Xüsusi hazırlanmış aparatdan və teleskopdan istifadə etməklə, NASA araşdırmaçıları fotolentə qəribə görüntülər çəkiblər: açıq kosmosda ölmüş insanların və heyvanların kabusları uçuşurdu. Bu hadisə rəsmi elm, parapsixologiya və din xadimləri arasında kəskin fikir ayrılığı yaradır. Lakin təkcə bir məqam onları birləşdirirdi: fotolar əsl idi! Rəsmi ekspertlər komissiyasının üzvlərindən biri belə deyir: **"Biz kabusların varlığı barədə çoxdan bilirik. Hələ 1993-cü ilin mayında biz "Xabl" teleskopunun köməyi ilə bu varlıqları kosmosda görə bilmişdik. Amma NASA rəhbərliyi və nümayəndəliyi bu bilgini məxfiləşdirmək qərarına gəldilər. Görüntüləri gizlətməkdə məqsəd insan formasında işıldayan obrazların nə olduğunu insanlara başa salmağın mümkünlüyünü gözləmək idi".**




**Dini ekspert Kənan Rövşənoğlu** müqəddəs kitabda cənnət və cəhənnəmin harada yerləşməsi barədə heç bir qeyd olmadığını dedi: "Cənnətin, cəhənnəmin harada olması mövzusu yeni olmasa da, bu mövzuda kiminsə yeni fikir söyləyəcəyini gözləmək inandırıcı deyil. Bu mövzuda əsas mənbə olan Qurani Kərimdə cəhənnəmin harada yerləşdiyi göstərilmir. Amma ayələrdə göstərilir ki, Yer kürəsi məhv edildikdən sonra insanlar haqq-hesab üçün dirilib yığılacaqlar. Bu hadisənin harada olacağı isə deyilmir. Bu səbəbdən də axirət mövzusu hər zaman insanları düşündürüb. Məsələn, fəlsəfəçilər cənnət və cəhənnəmin təsvirini nisbi hesab edir, önəmli olan ruhdur. Amma ilahiyyatçılara görə, hər şey Quranın təsvir etdiyi kimi olacaq. Yəni bu mövzuda da fərqli yanaşmalar var. Hətta bir neçə il əvvəl, deyəsən, "Discover"y kanalı elmi və dini mənbələrə əsasən Adəm və Həvvanın olduğu cənnətin indiki Təbriz şəhəri olduğu ideyasını irəli sürmüşdülər. Amma təbii ki, bütün bunlar versiyalardır. Dəqiq bilgi İlahi bilgidir. O isə bu mövzuda məkan bilgisi vermir".

**K.Rövşənoğlu bildirdi ki, Allah diqqəti daha çox mahiyyətə cəlb edir, nəinki məkana:** "Mənə görə Allah insanın diqqətini daha çox mahiyyətə cəlb edir, nəinki məkan və zamana. O səbəbdən də bu cür cənnət-cəhənnəm "ünvanları" ciddi sayıla bilməz. Hətta bu barədə ən ciddi elmi mərkəzdən bildirilsə də ciddi hesab edilməməlidir".

❑ **Günel MANAFLI**

# YENİ MÜSAVAT

## Son səhifə

N 90 (6411) 27 aprel 2015



## Çayları açıq göstərir deyə, küçədəki işıq lampalarını söndürür

Türkiyənin Ərzurum şəhərində ağlagəlməz bir olay yaşanıb. Bir çayxana sahibi müştərilərini aldatmaq üçün qəribə üsula baş vurub. Dəmli, tünd çayları açıq göstərdiyi üçün küçə lampalarını ümumi elektrik xəttinə müdaxilə edərək söndürən çayçı zaman-zaman şəhəri də qaranlığa qərq edirmiş. Çayxananın yerləşdiyi küçədə tez-tez qaranlıq olmasından, küçə işıqlarının yanmamasından narazı qalan sakinlər polisə müraciət edəndən sonra bu hal ortaya çıxıb. Araşdırma nəticəsində məlum olub ki, bu, çayxana sahibinin əməlidir. O, müştərilərin "niyə çaylar tünd deyil" şikayətinin qarşısını almaq üçün belə etdiyini polisə açıqlayıb. Şərti adı T.R olaraq göstərilən çayxana sahibi müştərilərin narazılığını azaltmaq üçün başqa çıxış yolu görmədiyini deyib: "Çayxananın yerləşdiyi yerdə işıq dirəkləri var, axşamlar par-par yanır. Nəticədə mənim xoruz quyruğu dəmlənmiş çaylarım bulanıq su kimi görünür. Hər gün müştəri narazılığına eyni qaydada cavab vermək isə yorucudur. Ona görə də çıxış yolu kimi lampaları bu formada söndürmək qərarına gəldim".

Çayxana sahibinə inzibati cəza veriləcəyi və ya çayxanasının bir neçə gün qapadılacağı gözlənilir.

## İt 380 kilometri gedib sahibinə qovuşdu



Böyük Britaniyada Pero ləqəbli it 380 kilometrlik yolu qət edərək, öz sahibinə qovuşub. Heyvan Penrin-Kok şəhərindən Kokermuta doğru məsafəni qaçaraq gəlib. Heyvanın sahibi Alan Ceyms Peronu digər şəhərdəki evində qoyub. Amma it orda öz sahibini gözləmək istəməyib və aradan 12 gün sonra evinə qayıdıb. 54 yaşlı Ceyms izah edib ki, bu cinsdəki itlər bir sutka fasiləsiz olaraq məsafə qət edə bilərlər. Amma itin öz doğma evini necə tapması sual olaraq qalır.

Fermerin həyat yoldaşı Şen isə deyir ki, it bu qədər məsafəni fasiləsiz və yardım almadan gələ bilməzdi. Onun fikrincə, yolda heyvansevərlərdən kimsə onun rastına çıxıb, onu yedizdirib və yola davam etməsinə yardım edib.

## 3 ildə evindən cəmi bir qab zibil çıxdı

Amerikada yaşayan Loren Sinqerin evindən 3 il ərzində sadəcə 1 qab zibil çıxıb. Bunun xüsusi bir sirri var. Nyu-Yorkda yaşayan Loren adlı "sıfır zibil" prinsipinə əməl edərək, ətraf mühiti çirkləndirməmək üçün belə bir addım atıb. Bundan 4 il öncə Nyu-York Universitetində oxuyanda ekologiya dərsində ətraf mühiti zibillə necə çirkləndirdiyini fərq edən Sinqer maraqlı bir proje hazırlayıb. Gənc qız qərar verib ki, bundan sonra plastik, neylon qabda olan heç bir qida məhsulu almayacaq. 2012-ci ildən etibarən heç bir paketli məhsul almayan Loren ancaq orqanik məhsullardan istifadə edir və nəticədə həyatının daha yaxşı olduğunu deyir. Loren gündəlik həyatda istifadə etdiyi əşyaların siyahısını hazırlayıb. Onların 99 faizi sonradan zibilə atılmır.





## Uşaqlar bunu analarının diqqətini çəkmək üçün edir

Türkiyəli uşaq psixoloqları müəyyənləşdirib ki, 3-11 yaşlı uşaqların valideynlərinin sözünə qulaq asmaması, onları incitməsi daha çox onların diqqət çəkmək cəhdi ilə bağlıdır. Xüsusən anaların iş qadını olduğu bu zamanda uşaqlar onlardan "oğurlanan" vaxta görə mübarizə aparırlar. Psixoloqlar müəyyən edib ki, uşaqlar bu cür asi davranışları ilə analarının onlar barədə daha çox düşünməsinə nail olmaq istəyir. Araşdırmaya rəhbərlik edən psixoloq Nadir Özdilek açıqlayıb ki, analar məhz uşaqlarının əcaib hərəkətlərindən sonra sanki silkələnir: "Analar məhz bu zaman uşaqlarına az vaxt ayırdıqlarının fərqinə varır və onların tərbiyəsinə, davranışına xüsusi diqqət ayırır. Amma uşaq bunu daim təkrarlayırsa, onu psixoloq yanına aparmaq lazımdır".




**QOÇ** - Uzaq yola çıxmaq üçün gözəl vaxtdır. Hətta maddi durumunuz aşağı səviyyədə olsa da, səfərdən imtina etməyin. Son vaxtlar sizə vəd verib reallaşdıra bilməyənlərə düşmən kimi baxmayın.

**BUĞA** - Şəxsi büdcənizdə, eləcə də qarşılıqlı münasibətlər zəminində müsbət dönüş yaratmaq üçün kifayət qədər şanslarınız var. Atacağınız hər bir addımı dönə-dönə ölçüb-biçin.

**ƏKİZLƏR** - Vaxt tapıb bir qədər Axirət haqqında düşünün. Son yolumuz Oraya olduğu üçün savablarınızı artırmağa, hamı ilə mehriban davranmağa çalışın. Hakim Allahdır - məhz bunu anlamağa çalışın.

**XƏRÇƏNG** - Ulduzlar boş-boşuna oturmağınızı məsləhət görmür. Ən azı ona görə ki, bu təqvimin şanslarını görüb aktivliyinizi birə-beş artırmalısınız. Nahardan sonra müqəddəs yerlərə gedin.

**ŞİR** - Qərarlarınızda qəti və ədalətli olsanız, heç bir xoşagəlməzliyin şahidi olmayacaqsınız. Çalışın ki, bahalı əşyaların, o cümlədən daşınmaz əmlakın alqı-satqısında iştirak etməyəsiniz.

**QIZ** - Ümumi götürdükdə uğurlu təqvim hesab etmək olar. Əvvəla, əvvəlki beş bürclə müqayisədə büdcə artımı yalnız sizdə gözlənilir. Bundan başqa yeni təkliflər alacağınız da mümkündür.

**TƏRƏZİ** - Ümumən darıxdırıcı təqvim olsa da, hisslərinizi cilovlamağı bacarmalısınız. Çünki qarşıda sizi böyük işlər gözləyir. Nahardan sonrakı ərəfəni bütünlüklə məhəbbətə həsr edin.

**ƏQRƏB** - Təxminən saat 15-ə qədər bütün mühüm işlərinizi təxirə salın. Əks təqdirdə, uğursuz cəhdlər silsiləsinə mübtəla olacaqsınız. Sonrakı müddətdə isə maraqlı hadisə və insanlarla rastlaşacaqsınız.

**OXATAN** - Kifayət qədər düşərli vaxtdır. Göy qübbəsi gün ərzində nəzərdə tutduğunuz planların reallaşmasına təkan verəcək. Sadəcə, şəraitə uyğun addım atmalısınız. Bəxtinizə inanın.

**OĞLAQ** - İşlərinizin çoxluğu fiziki cəhətdən yorğunluğunuza səbəb ola bilər. Lakin nəticənin uğurluluğunu nəzərə alıb usanmayın. Etibar etmədiyiniz adamların məsləhətlərinə əhəmiyyət verməyin.

**SUTÖKƏN** - Yeni görüş və məsləhətləşmələrdə iştirakınız gözlənilir. Qarşınızı kəsən maneələr yavaş-yavaş səngiməyə başlayacaq. Təcrübəli adamlardan yararlanın. Bəxtinizdə pul da var.

**BALIQLAR** - Yeni əlaqələr üçün yaxşı vaxtdır. Sadəcə, qarşı tərəfə güzəştə getməyiniz vacibdir. Nahardan sonra fəaliyyət istiqamətində sevindirici olaylar da gözlənilir. Reallığı nəzərə alın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Bu nəsildə 2 əsrdir ki, qız uşağı dünyaya gəlmirdi



Aydaxo ştatında yaşayan Anderdal ailəsində 1914-cü ildən etibarən ilk dəfə qız uşağı dünyaya gəlib. "Fox News" telekanalının verdiyi xəbərə görə, Aureliya Mari Ennon 12 apreldə dünyaya gəlib. O, dörd nəsildir qız uşağı dünyaya gəlməyən nəslin ilk qız övladıdır. Atası Skott Anderdalın sözlərinə görə, indi o, bu ailədə qız uşaqlarının necə görünə biləcəyini nəhayət ki, anlayıb. Balaca Aurelinin burnu babasının burnuna oxşayır.

Bu ilin martında Yelsk Universiteti alimləri müəyyənləşdiriblər ki, insanlarda cinsiyyət 1.5 milyon il öncə nəslin genlərinə düşən viruslar əsasında müəyyənləşir. Embrionun orqanizmi X-xromosomdakı endovirusu "söndürməyə" qadirdir.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750